

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Leyla Əliyevanın iştirakı ilə Sabunçu rayonunda ağacəkmə aksiyası keçirilib**



4

# Azərbaycan – etibarlı və mühüm TƏRƏFDAŞ!



2

*Prezident İlham Əliyev Somalinin və İspaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib*

SƏS

№ 203 (7128)

2 noyabr 2024-cü il.
Qiyməti 60 qəpik

**Əli Kərimli özünü "şipion" kimi aparır**



10

# ABŞ-da kürsü savaşının finalı



8

**Dinləyin bu uşağı, sizə sözü var...!**



12

**Bu ay Azərbaycanda ardıcıl 6 qeyri-iş günü olacaq**



16

**ƏSRLƏRİN YADDAŞINA KÖÇƏN ŞƏHİDLƏRİMİZ**



13

**Azərbaycana buraxılmayan "arzuolunmaz şəxs"lərin SAYI**



11

# Azərbaycan – etibarlı və mühüm TƏRƏFDAŞ!





## *Prezident İlham Əliyev Somalinin və İspaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Somali Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fathudin Ali Mohamedin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi.

COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı təbriklərini çatdıran Fathudin Ali Mohamed Somali Prezidentinin bu tədbirdə iştirak edəcəyini bildirərək vurğuladı ki, COP çərçivəsində Azərbaycan və Somali dövlət başçılarının keçiriləcək görüşü münasibətlərimizin inkişafına əlavə təkan verəcək.

Səfir əməkdaşlığımızın gündən-günə möhkəmləndiyini qeyd etdi. O, elm və təhsil sahələrində əməkdaşlığa toxundu, hələ sovet dövründə Somalidən çoxsaylı tələbənin Azərbaycanda təhsil aldığını dedi və bu ənənələrin davam etdirilməsində maraqlı olduqlarını vurğuladı.

Prezident İlham Əliyev ticarət, iqtisadiyyat və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu qeyd etdi.

Söhbət zamanı müxtəlif səviyyələrdə təmasların önəminə toxunuldu, beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımızdan məmnunluq ifadə olundu.

Azərbaycan Prezidenti İlham Əliyev dünən həmçinin İspaniya Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kristina Latore Sançonun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Valensiya regionunda baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı bir daha başsağlığı verdi və bununla əlaqədar İspaniya Hökumətinin Sədri Pedro Sançezə məktub göndərdiyini qeyd etdi. Səfir başsağlığına və məktuba görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

O, Azərbaycanın COP29-a ev sahibliyi etməsinin və sədrliyinin, həmçinin ölkəmizin iqlim dəyişmələri prosesindəki mübarizəyə töhfə vermək əzminin yüksək qiymətləndirildiyini vurğuladı, bu tədbirin Azərbaycanda uğurla keçiriləcəyinə əminliyini ifadə etdi.

Kristina Latore Sanço bildirdi ki, İspaniya Hökumətinin Sədri COP-un təşkilində Azərbaycan Prezidentinin şəxsi təşəbbüsünü yüksək qiymətləndirir. Səfir iqlim dəyişmələri ilə bağlı mübarizə işində dövlətimizin başçısının fəaliyyətini qeyd edərək, ümumilikdə COP29 kimi mühüm tədbirin təşkilinə görə Azərbaycan tərəfinə və şəxsən dövlətimizin başçısına İspaniya Hökuməti adından minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev COP29-un keçirilməsi ilə bağlı hazırlıq işlərinə bir ildən də az vaxtın olmasına baxmayaraq bütün işlərin



yüksək səviyyədə təşkil edilməsi üçün Azərbaycan tərəfinin böyük səy göstərdiyini dedi.

Dövlətimizin başçısı İspaniya Hökumətinin Sədrinin COP29-da iştirakından məmnunluğunu bildirərək qeyd etdi ki, bu, İspaniya tərəfindən hökumət sədri səviyyəsində ölkəmizə ilk səfər olacaq.

Səfər çərçivəsində keçiriləcək görüşlərin ikitərəfli münasibətlərimizin inkişafına yeni təkan verəcəyinə ümidvarlıq ifadə olundu. Azərbaycanın füsunkar ölkə və Bakının çox gözəl şəhər olduğunu deyən səfir ölkəmizdən xoş təəssürat aldığını bildirdi.

Görüşdə Azərbaycanla İspaniya arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi, bu xüsusda aidiyyəti dövlət qurumlarının iştirakı ilə işçi qrupunun yaradılması məsələsi qeyd olundu. Ölkələrimiz arasında iqtisadiyyat, ticarət, turizm, energetika və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin olduğu vurğulandı. Orta Dəhlizin İspaniya şirkətlərinin region ölkələri ilə əlaqələrinin inkişafı üçün əlverişli perspektivlər açdığı qeyd edildi. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.



# Azərbaycan və Ermənistan arasında sərhədin delimitasiyası üzrə komissiyaların onuncu iclası keçirilib

2024-cü il noyabrın 1-də Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın onuncu görüşü keçirilib.

Yuxarıda qeyd olunan komissiyaların birgə fəaliyyəti haqqında 2024-cü il avqustun 30-da imzalanmış Əsasnamənin 7-ci maddəsinə uyğun olaraq, görüş zamanı Tərəflər həmin Əsasnamənin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların onların dövlətləri tərəfindən yerinə yetirilməsi barədə bildirişləri mübadilə etdilər.

Əsasnamənin 7-ci maddəsinin bu cür prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin alındığı gündə onun qüvvəyə minməsini təsbit etməsini nəzərə alaraq, Tərəflər vurğuladılar ki, sözügedən Əsasnamə 2024-cü il noyabrın 1-də qüvvəyə minir.

Tərəflər növbəti mərhələdə delimitasiya işlərinin həyata keçirilməsi üçün sərhəd xəttinin sahələrinin/hissələrinin ardıcıllığı məsələsi ətrafında fikir mübadiləsi apardılar.

Tərəflər delimitasiya işlərinin görülməsinin qaydası üzrə müvafiq təlimatların layihələrini müzakirə etdilər. Tərəflər növbəti görüşün keçirilməsinin tarixini və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəldilər.

Komissiyaların görüşü başa çatdıqdan sonra Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryan ayrıca olaraq nəqliyyat kommunikasiyaları məsələlərini müzakirə etdilər.





# Müasirləşən Bakı yeni inkişaf dövründə

*Dövlət başçısı Bakı Dəmiryol Vağzalının və metronun "28 May" stansiyasının qarşısındakı ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub*

***Bu gün ölkəmizin iqtisadi və sosial həyatında baş verən dəyişikliklər bütün sahələrdə yüksəlişlə müşayiət olunub. Ölkəmizin hər bir yerində abadlıq, quruculuq işləri geniş vüsət alıb. Dinamik inkişaf, infrastrukturun yeniləşdirilməsi, geniş vüsət almış tikinti, quruculuq və abadlıq işləri regionlarla yanaşı, paytaxt Bakıda da uğurla davam etdirilir.***

Son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artıb. Hər zaman tarixi və bir-birindən maraqlı, diqqətçəkən tikililəri ilə göz oxşayan Bakının adı bu gün yeni-yeni möhtəşəm və bənzərsiz abidələri ilə dünyanın ən gözəl və müasir şəhərləri sırasında yer alıb. Paytaxtımızın görkəmi dəyişir, sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, mövcud şəhərsalma normalarına cavab verməyən, şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış binalarının, sosial və digər qeyri-yaşayış obyektlərinin sökülərək yenidənqurulması, yeni yaşayış binalarının inşa edilməsi, yeni yollar və parkların salınması, əlavə iş yerlərinin açılması istiqamətində ardıcıl işlər görülüb və bu davam etməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Bakı Dəmiryol Vağzalının və metronun "28 May" stansiyasının qarşısındakı ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub. Raytaxtımızda Puşkin küçəsinin Azadlıq prospekti ilə birləşməsindən Dilarə Əliyeva küçəsi ilə kəsişməsinədək olan hissəsində - Bakı Dəmiryol Vağzalı və metronun "28 May" stansiyasının qarşısındakı ərazidə işlər görülüb. Ümumi sahəsi 3,5 hektar olan ərazidə minik avtomobillərinin hərəkəti ləğv edilərək, müasir tələblərə cavab verən avtobus, piyada və velosiped zolaqları yaradılıb. Köhnə döşəmə örtükləri ləğv edilərək, qranit bordürlər düzülüb və təqribən 22 min kvadratmetr qranit döşəmə örtüyü salınıb. Ərazidə ümumi sahəsi təqribən 2300 kvadratmetr olan yaşıllıq yaradılıb, İtaliyadan gətirilmiş 200-dən çox ağac, 15 mindən çox kol əkilib, işıqlandırma işləri aparılıb, müasir oturacaqlar quraşdırılıb. Həmçinin müasir tikinti norma və qaydalarına cavab verən 2 fəvvarə, 2 dayanacaq inşa edilib, elektrik avtobusları üçün 4 enerjidoldurma məntəqəsi quraşdırılıb.

## TƏMİZ ƏTRAF MÜHİT VƏ YAŞIL ARTIM ÖLKƏSİ

Dünyanın iri şəhərləri, xüsusilə paytaxt şəhərlər məxsus olduqları dövlətlərin bütövlükdə siyasi-iqtisadi, tarixi-mədəni inkişaf səviyyəsini, eləcə də şəhərsalma mədəniyyətini özündə əks etdirir. Azərbaycanın paytaxtı Küləklər şəhəri Bakı da yüz illər ərzində formalaşan qədim şərq və müasir qərb memarlığının sintezinə əsaslanan özünəməxsus şəhərsalma ənənələrinə malik məkandır. Son illərdə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artıb.

Ardı Səh. 4









# Müasirləşən Bakı yeni inkişaf dövründə

Əvvəli-Səh-3

Azərbaycanın 2030-cu ilə qədər təmiz ətraf mühit və yaşıl artım ölkəsinə çevrilməsi sosial-iqtisadi inkişafa dair milli prioritetlər sırasındadır. Bu xüsusda görülən işlər həm paytaxt sakinlərinin və Bakıya gələn çoxsaylı turistlərin istirahəti üçün müvafiq şəraitin yaradılması, həm də şəhərin ekoloji durumunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlı olduğunu bir daha nümayiş etdirir. COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində görülən abadlıq və yenidənqurma işləri də ətraf mühitin sağlamlaşdırılmasına mühüm töhfə verir, eyni zamanda, Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirir.

### ŞƏHƏRƏ GÖZƏLLİK GƏTİRƏN PARK VƏ XİYABANLAR

Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin göstərişinə əsasən Nəsimi rayonu ərazisində salınan yeni parkdır. Yeni salınan parkda sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa müddətdə gözəl şərait yaradılıb. Ərazidə asfalt örtüyü ləğv edilərək müasir tələblərə cavab verən piyada yolları salınıb. Yeni parkda yaşıllaşdırma, işıqlandırma işləri görülüb, müasir oturacaqlar quraşdırılıb, uşaq əyləncə zonası yaradılıb. "Yaşıl dünya naminə həmrəylik ili"ndə də yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Nəsimi rayonu ərazisində yeni salınan park da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından əhəmiyyətlidir.

Bakının Səbail rayonunda yerləşən "Xaqani" bağında və ətraf ərazilərdə də abadlıq - yenidənqurma işləri aparılıb. Bakının Səbail rayonunda yerləşən "Xaqani" bağının mövcud ərazisi genişləndirilib, istirahət guşəsinin ətrafındakı Rəsul Rza, Qoqol və Xaqani küçələrində avtomobil yolları ləğv edilərək piyadaların istifadəsinə verilib. Ümumi ərazisi 1,4 hektar olan bağın ərazisində yaşıllaşdırma, işıqlandırma işləri görülüb, müasir oturacaqlar quraşdırılıb, uşaq əyləncə zonası yaradılıb və ətrafda olan yaşayış binalarında təmir-bərpa işləri aparılıb. Bu, dövlətimizin başçısının Bakı şəhərində parkların, xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən abadlaşdırılan növbəti istirahət guşələrindən biridir. Şəhərin mərkəzində yerləşən bağda sakinlərin istirahəti üçün qısa müddətdə gözəl şərait yaradılıb. Bu bağın Bakının ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində istifadəyə verilməsi ölkəmizə gələcək turistlərin istirahətinin səmərəli təşkilində də xüsusilə əhəmiyyətlidir.

### ŞƏRQİN QOCAMAN ŞƏHƏRİ

Qədimliyinə, ərazisinin böyüklüyünə və əhalisinin sayına görə Şərqin qocaman və ən böyük şəhərlərindən biri hesab olunan Bakının rəmzinə çevrilən və ona yeni sima və rəng verən müasir tikililər də, məhz iqtisadi göstəricilərin məntiqidir. Bakının ümumi görünüşünü daha da müasirləşdirən şəhərindəki ən hündür bina olan "Alov qüllələri" kompleksi, Azərbaycan muğamının dünyada geniş təbliği məqsədi ilə yaradılan, Avropa standartları ilə inşa edilən Beynəlxalq Muğam Mərkəzi, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliği və s. istiqamətində sistemli fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi, eləcə də Xalça muzeyi, Bakı Su İdmanı Mərkəzi və digər qədim tarixə tikililər Bakının simasına müasirlik gətirib. Son illərdə Bakıda brend şəbəkələrə aid bir neçə beşulduzlu hotelin açılması paytaxtımızın simasına daha bir rəngarənglik əlavə edib. Bu gün "Four Seasons", "Fairmont", "Mariott", "Hilton", "Kempinski", "Jumeirah", "Sheraton", "Hyatt" - dünyanın səkkiz aparıcı hotel brendi Bakıdadır. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur. "Bilirsiniz ki, mən şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edirəm, bir çox layihələrin təşəbbüskarı olmuşam. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən mənim həmkarlarım həmişə paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı doğrudan da dünyanın ən gözəl şəhərlərindən biridir", - deyə Prezident çıxışlarının birində bildirib.

Bakıdakı Dənizkənarı Milli Park Bakı şəhərinin ən maraqlı və spesifik təbii şəraitə malik yerlərindəndir. Bu gün Milli Parkımız ərazisinin böyüklüyünə görə Parisdə Sena çayı sahilindəki parkdan sonra Avropada ikinci yerdədir. Burada "Baku Kristal Hall"ın inşası bu ərazinin görkəminə yeni rəng əlavə edib. 25 min nəfərlik tamaşaçı yeri olan kompleks orijinal arxitekturası ilə fərqlənir və paytaxtın memarlıq quruluşuna xüsusi yaraşıq verir. Bu bənzərsiz, möhtəşəm görkəm Bakının dünyanın ən görməli 52 şəhərindən biri kimi seçilməsinə səbəb olub.

Bakı Bulvarında bərpa edilən "Qu quşları" fəvvarə kompleksi də paytaxtımızın əzəmətinə, görkəminə xüsusi bir rəng verir. Bakı Bulvarının tarixi rəmzlərindən biri olan "Qu quşları" fəvvarə kompleksi 60 ildən artıq tarixə malikdir. Paytaxtımızda qurulan "Qu quşları" fəvvarəsi də sakinlərin sevimli məkanlarından biri kimi hər zaman sevilib. Dünyaşöhrətli, Azərbaycanın dahi şairi Nizami Gəncəvi və görkəmli bəstəkar Qara Qarayevin "Yeddi gözəl" poeması və baletindən ruhlanaraq yaradılan və 7 qu quşu heykəlindən ibarət fəvvarə paytaxtın gözəl məkanlarından biridir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu tarixi ansambl yenidən bərpa edildi. Layihə çərçivəsində ərazidə hovuz inşa edilib, 16 fəvvarə dirəyi qurulub və 7 qu quşu heykəli hazırlanıb. Bu məkan müasirləşən paytaxt Bakının görkəminə daha bir gözəllik və möhtəşəmlik gətirdi. İndi şəhərimizin sakinləri və buraya üz tutan minlərlə əcnəbi bu gözəlliyi seyr edərək, qədim və müasir Bakının gözəlliklərinə və hüsnünə heyran qalırlar.

### EKOLOJİ FƏLAKƏT MƏNBƏYİ ARADAN GÖTÜRÜLDÜ

Paytaxt Bakı inkişafının yeni dövrünü yaşayır və şəhərimizi gözəlliyinə yeni gözəlliklər qatılır. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması davam edir. Yeni salınan parklar Bakının simasının daha da gözəlləşməsi baxımından mühüm rol oynayır. Cənab İlham Əliyev bildirdiyi kimi, parklar şəhərimizin hər bir yerində salınır, o cümlədən qəsəbələrdə: "Hesab edirəm ki, Bakı parkların sayına görə dünyada lider şəhərlərdən biridir".

Qəsəbələrin simasının dəyişdirilməsi, yaşıllıqların genişləndirilməsi istiqamətində atılan addımlar rayon sakinlərinin rahat yaşayışının təmin edilməsinə yönəlib. Yolların kənarında yaşıllıq zolaqları genişləndirilir. Keçmiş Balaxanı zibilxanasının buraxırdığı tüstü nəticəsində havanın keyfiyyəti böyük dərəcədə aşağı düşmüşdü və insan sağlamlığına böyük zərər verirdi: "İndi keçmiş Balaxanı zibilxanasının yerində müasir poliqon qurulub və zibilin çeşidlənməsi, bərk məişət tullantılarının yandırılması istiqamətində böyük addımlar atılıb, böyük investisiyalar qoyulub, zibilyandırma zavodu inşa edilibdir. Biz bu ekoloji fəlakət mənbəyini aradan götürdük". Dövlət başçısı digər ekoloji fəlakət mənbəyi kimi Bibiheybət neft mədənlərinin olduğunu vurğulayıb: "Oradakı vəziyyət, ümumiyyətlə, çox acınacaqlı idi, neftlə çirklənmiş yerlər, gölməçələr. Bunların hamısı aradan götürüldü. İndi orada gözəl park salınıb və vətəndaşların sərəncamına verilib. Eyni zamanda, idman şəhərciyi yaradılıb, müasir idman hovuzu, digər ictimai obyektlər tikilib".

Əlbəttə ki, ölkənin iqtisadi və maliyyə imkanları genişləndikcə bu, hər bir rayonun, qəsəbənin, bölgənin, həmçinin insanların gündəlik həyatında özünü büruzə verir. İqtisadiyyatın güzgüsü isə dövlət büdcəsidir. Dövlət büdcəmizin ildən-ilə artması sosial-iqtisadi islahatların uğurlu icrasından xəbər verir.

**Nəzakət ƏLƏDDİNQIZI**



# Leyla Əliyevanın iştirakı ilə Sabunçu rayonunda ağacəkmə aksiyası keçirilib





***Noyabrın 1-də Bakının Sabunçu rayonu ərazisində ağacəkmə aksiyası keçirilib. Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva aksiyada iştirak edib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) və COP29 könüllülərinin qatıldıqları aksiyada 1000 ədəd Eldar şamı ağacı əkilib.***

Ağacəkmə aksiyası 2024-cü ilin Azərbaycan Respublikası Prezidenti tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi çərçivəsində ölkəmizdə yaşıllıq zolaqlarının artırılması və ətraf mühitin mühafizəsinə daha bir töhfə kimi dəyərləndirilə bilər. Aksiya, eyni zamanda, ölkəmizdə keçiriləcək COP29 konfransına dəstəyin və ümumiyyətlə təbiətin qorunması ilə bağlı təşəbbüslərə həmrəyliyin ifadəsidir.

Qeyd edək ki, Leyla Əliyevanın rəhbərlik etdiyi "IDEA" İctimai Birliyi Azərbaycanda ekoloji tarazlığın bərpası, təbiətə töhfə vermək, insanların diqqətini yaşıllıqların qorunmasına yönəltmək, eləcə də ətraf mühitin mühafizəsi işində ictimai nəzarəti gücləndirmək məqsədi daşıyan çoxsaylı layihələr icra edir.

Ölkəmizdə yeni yaşıllıqların salınması, mövcudlarının qorunması ilə yanaşı, eyni zamanda, əvvəllər heç bir yaşıllıq olmayan sahələrdə də ağacəkmə aksiyalarının keçirilməsi ekoloji durumun yaxşılaşdırılması, yaşıllıq zonalarının artırılması istiqamətində önəmli addımlardandır.

# Zəfər tariximizin astanasında

**_Bir neçə gündən sonra xalqımız şərəfli tarixini – Zəfər gününü qeyd edəcək. Dünyaya, düşmənə məğrur və yenilməz xalq olduğunu göstərən Azərbaycan Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək işğala son qoyduq. Azərbaycan xalqının torpaq uğurunda savaşı və sonda qələbə tarixinin yazılması ilə nəticələnən 44 günlük müharibə Azərbaycan ordusunun Vətən Müharibəsindəki hünərindən, qəhrəmanamığından qaynaqlanırdı._**



Sanki hadisələr xronoloji ardıcıllıqla davam edirdi. Beləliklə, Zəfər tariximiz yazıldı. Bu sevincləri yaşadan Azərbaycan əsgəri qəhrəmanlıq simvoluna çevrildi. Döyüşdən qorxub qaçan erməni Azərbaycan əsgəri qarşısında məğlub olduğunu dünyaya göstərdi. 30 ilə yaxın işğal altında saxladıqları torpaqlarımızda şumlama əməliyyatı aparmış, insanları doğma ocaqlarından didərgin salmışdılar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin noyabrın 2-də İtaliyanın "La Repubblica" qəzetinə verdiyi müsahibədə belə deyirdi: " Bu ərazidə bəlkə də indi daha çox erməni məskunlaşıb, çünki bütün azərbaycanlılar didərgin salınıblar. Onlar azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdilər. Bu, statistikadır, bizim deyil, sovet dövrünün statistikasıdır. 1970-ci illərin sonunda Dağlıq Qarabağ muxtar vilayətində müxtəlif millətlərdən olan neçə nəfər yaşayırdı? Əhalinin demək olar ki, 25 faizi azərbaycanlılar idi, 40 min nəfər. Şuşada 98 faiz azərbaycanlılar məskunlaşmışdılar. Bu gün orada bir nəfər azərbaycanlı belə yoxdur. Xankəndidə çox sayda azərbaycanlı var idi. Hadrut rayonunda, digər rayonlarda, soyqırımı törətdikləri Xocalıda 100 faiz azərbaycanlılar idi. Beləliklə, onların hamısı etnik təmizləməyə məruz qalıb, qətlə yetirilib, işgəncəyə məruz qalıb və didərgin salınıblar. Təəssüflər olsun ki, heç kim Ermənistanı bunda günahlandırmayıb."

## ZƏFƏR SEVİNCİMİZİN LAP ASTANASINDA İDİK

Hər dəfə qələbə sevincini bizlərə yaşadan Ali Baş Komandanın xalqa müraciətləri zamanı işğaldan azad olunan şəhər, kənd, qəsəbələrin xəbərini bizə çatdırması qələbəmizin lap yaxında olmasından xəbər verirdi. Dörd il əvvəl 3 noyabrda müharibənin başlanmasından 38 gün keçmişdi və işğalda olan Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər, Tərtər rayonunun Suqovuşan və Talış kəndləri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi, Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri, Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri, Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri və s. onlarla belə ərazilərimiz işğaldan azad olundu. 4 noyabr tarixində isə Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri işğaldan azad olundu. Bu və ya digər ərazilərin işğaldan azad olunması Azərbaycanın güclü və qüdrətli bir ölkə olduğunu təqdim edirdi.

Bir neçə gündən sonra artıq Qələbə xəbərini eşidəcəydik. Qələbəmiz bir addımlıqda idi. 30 ilə yaxın gözlədiyimiz tarixi Zəfər sevincimizin lap astanasında idik. «Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!»

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 noyabr 2020-ci il tarixində özünün "Twitter" hesabında bildirmişdi. Zəfərimizə tarixi günlər qalmışdır. 44 günlük Vətən müharibəsində qısa bir zamanda uğurlu əməliyyatlar nəticəsində düşmən tapdağı altında olan torpaqlarımız işğaldan azad olunurdu.

## ERMƏNİ TƏRƏFİ YALNIZ FEYK XƏBƏRLƏR YAYIRDI

Ermənistanda isə vəziyyət tamamilə başqa məcrada idi. Vətəndaşları döyüşmək üçün könüllü şəkildə Qarabağa getməkdən imtina edirdilər. Erməni vəkil Robert Ayrapetyan sosial şəbəkə hesabında yazırdı ki, doğum evlərində ataları döyüşə getməkdən imtina edən körpələrə doğum haqqında şəhadətnamə vermirlər və faktiki olaraq "uşaqları və anaları girov götürürlər". Ermənistan tərəfi döyüşdə verdiyi itkilərin sayını açıqlamaqdan imtina edirdi. Paşinyan hakimiyyəti real rəqəmləri açıqlamır, çünki xalqın qəzəbindən qorxurdu.

Qarabağdakı rejim daxilində də xaos hökm sürürdü. Yaranmış xaosda erməni tərəfi yalnız feyk xəbərlər yaymaqla məşğul idi. Amma artıq bu proses də o qədər xaotik xarakter almışdır ki, ermənilər özləri öz feyklləri arasında çaş-baş qalmışdılar.

Müharibə şəraitində yaşayan Azərbaycan müharibəyə qədər olan dövrdə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, ordunun peşəkar kadrlarla təchizatı, döyüş hazırlığının artırılması dövlət siyasətinin prioritet istiqamətini təşkil edib və hər il bu məqsədlər üçün büdcədən qeyd olunan böyük həcmlərdə vəsait ayrılıb. Sentyabrın 27-dən etibarən genişmiqyaslı əks-hücum əməliyyatlarına başlayan Azərbaycan Ordusu xilaskarlıq missiyasını yerinə yetirərək hər gün yeni hərbi uğurlara imza atırdı. Azərbaycan Ordusu doğma torpaqlarında vuruşur, doğma torpaqlarında şəhidlər verirdi. Ordumuz döyüş meydanlarında bir sıra innovativ texnologiyaları məharətlə tətbiq etməklə, taktiki və strateji əməliyyatları düzgün əlaqələndirməklə dünyanın hərb tarixinə yeniliklər bəxş etdi. Prezident İlham Əliyev çıxışlarında və müsahibələrində də bildirdiyi kimi, Ordumuzun qələbələrinin əsas qəhrəmanları Vətəni çox sevən, torpaqlarımızın hər qarışı uğrunda canından, qanından keçməyə hazır olan əsgər və zabitlərimizdir.

## MÜDRİKLİYƏ VƏ QƏTİYYƏTƏ İNAM

Azərbaycan xalqı isə Azərbaycan Prezidenti İlham Əliyevə məktublar göndərməkdə davam edirdilər. Onlar rəşadətli ordumuzun uğurlu əməliyyatları, torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı sevinc hisslərini bölüşür, dövlətimizin başçısına minnətdarlıqlarını bildirirdilər. Xaricdə yaşayan soydaşlarımızdan biri belə yazırdı: "Çox hörmətli cənab Prezident, bu gün dünyanın harasında olmasından asılı olmayaraq bütün dünya azərbaycanlılarının diqqəti Sizə yönəlib. Müzəffər Ali Baş Komandan kimi xalqımızın torpaqlarımızın bütövlüyü, haqq və ədalət uğrunda mübarizəsinə rəhbərlik edirsiniz. Bu gün ölkəmizə qarşı şər və böhtan kampaniyalarına külli miqdarda vəsait xərclənir. Azərbaycanın dünyaya açıq və aydın mesajları təhrif olunur. İndi ən mühüm işlərdən biri Azərbaycanın həqiqətlərini və hədəflərini dünyaya çatdırmaq üçün informasiya hücumlarını dəf etməkdir. Bu hər bir vətənpərvər insanın ümumi vəzifəsidir. ..Biz həmişə Sizinləyik. Sizin müdrikliyinizə, xoşməramlılığınıza, qətiyyətinizə əminik. Daim xalqımızın, dövlətimizin mənafelərini qorumaq üçün davamlı səy göstərdiyinizə inanırıq. Uca Allah qətiyyətinizi, gücünüzü yüz qat artırsın və Sizin vasitənizlə xalqımızı gücləndirsin".

## "DƏMİR YUMRUQ" VƏ İMZALANAN BƏYANAT

Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddialarına 1988-ci ildə başlanıb. Sonradan müharibəyə çevrilən bu münaqişə xarici havadarlarına arxalanan Ermənistanın qələbəsi ilə yekunlaşıb. 1994-cü ilin mayında tərəflər arasında atəşkəs elan olunub. Qarabağda yaşayan separatçı ermənilər müstəqil respublika elan etsələr də bu qondarma "dövlət" heç bir beynəlxalq qurum və dövlət tərəfindən tanınmayıb. BMT Təhlükəsizlik Şurası Ermənistan ordusunun Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması barədə dörd qətnamə qəbul etsə də, Ermənistan hökuməti bu sənədləri icra etmədi.

Müzəffər Ali Baş Komandanın əmri ilə Azərbaycan əsgəri düşmənin işğal edilmiş ərazilərdə 30 il müddətində tikdiyi istehkam maneələrini yarır, qurduğu pusquları dağıdır və hədəfə yaxınlaşırdı. Əks-hücum əməliyyatında ordumuzun qarşısında duran əsas tapşırıq çətin relyef və iqlim şəraitində mütəşəkkil qaydada irəliləmək və işğal altında olan torpaqlarımızı cinayətkar ordu qruplaşmasından xilas etmək idi.

Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı. "Dəmir yumruğ"un gücünə imzalanan bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.

Ölkəmizin tarixi qələbəsi, münaqişənin həlli regionun yenidən çiçəklənməsinə böyük stimuldur. Cənab Prezidentin də qeyd etdiyi kimi, bizə maksimum sərf edən sənəd imzalanıb. Bu nəticənin əldə olunmasında başda Müzəffər Ali Baş Komandan olmaqla, bütün ordumuzun və hərbi əməliyyatlar dövründə birlik, həmrəylik nümayiş etdirən xalqımızın hər bir nümayəndəsinin rolu oldu. Biz böyük bir nailiyyəti ZƏFƏRİ əldə etdik.

***Zümrüd BAYRAMOVA***




# Milli Məclisin plenar iclası keçirilib, 9 məsələ müzakirə olunub

***Noyabrın 1-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasın gündəliyi qəbul edildikdən sonra cari məsələlərin müzakirəsinə başlanılıb. Müzakirələrdə Milli Məclis sədrinin müavini Rafael Hüseynov, parlamentin komitə sədrləri Zahid Oruc, Fazil Mustafa, Siyavuş Novruzov, deputatlar Naqif Həmzəyev, Müşfiq Məmmədli, Əziz Ələkbərov, Əli Məsimli, Ceyhun Məmmədov, Razi Nurullayev, Hikmət Məmmədov çıxış ediblər.***

Deputatlar Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi ilə məqsədyönlü siyasət sayəsində dövlətimizin daha da qüdrətləndiyini, iqtisadi inkişafla bağlı proqramların uğurla həyata keçirildiyini, vətəndaşların sosial rifah halının yüksəlməsi istiqamətində təqdirəlayiq addımların atıldığını, əhəmiyyətli infrastruktur layihələrinin icra olunduğunu, torpaqlarımızın 30 illik işğaldan azad edildiyini, suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpa edildiyini vurğulayıblar. Müzakirələrdə, həmçinin ölkə və dünya mətbuatında cərəyan edən proseslərə nəzər salınıb. Eyni zamanda, anti-Azərbaycan qüvvələrin COP29-la bağlı ölkəmizə qarşı təzyiqləri pislənilib, Qərbi Azərbaycan ərazisi ilə bağlı aparılan araşdırmaların nəticəsi barədə bir sıra faktlar diqqətə çatdırılıb.

Sonra gündəlikdə yer alan 9 məsələnin (ikinci oxunuş) müzakirəsi keçirilib.

Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. O, layihənin əhalinin dərman vasitələrinə olan ehtiyaclarının qarşılanması, əlçatanlığın və keyfiyyətin artırılması, habelə sığortaolunanların maraqlarının qorunmasına hüquqi zəminin yaradılması məqsədilə hazırlandığını deyib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirilib ki, layihə bələdiyyələrin maliyyə resurslarına çıxışının artırılması məqsədilə onlara qrant verilməsinin, o cümlədən dövlət tərəfindən qrant verilməsinin hüquqi əsaslarının yaradılması və bundan irəli gələn məsələlərin tənzimlənməsi məqsədilə hazırlanıb.

Komitə sədri, həmçinin "Daşınar əmlakın yüklülüyü haqqında" Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsindən bəhs edib. Bildirilib ki, adıçəkilən qanunun 21-ci maddəsi ilə daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması zamanı reyestrə daxil edilən bildirişdə göstərilən məlumatların dairəsi təsbit edilir. Təklif edilən qanun layihəsi həmin məlumatların sırasına daşınar əmlakın seriya nömrəsinin də əlavə edilməsinin hüquqi əsaslarını yaradır.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamran Bayramov "Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Diqqətə çatdırılıb ki, layihədə ümumilikdə 5 məcəllədə və 6 qanunda dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin mahiyyətini açıqlayıb. Bildirilib ki, dəyişikliyin əsas məqsədi ölkədə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsil müəssisələrinin sayının artırılması və həmin təhsil pilləsinin təkmilləşdirilməsidir.

Sonra Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova "Uşaq hüquqları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. O bildirib ki, bu sənəd uşaqların hüquqlarının qorunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə danışıb. O, layihə ilə bağlı birinci oxunuş zamanı ətraflı məlumat verildiyini, ikinci oxunuşda komitəyə əlavə təklifin daxil olmadığını, mətndə heç bir dəyişikliyin edilmədiyini deyib və sənədin dəstəklənməsini xahiş edib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. O, birinci oxunuş zamanı məsələ barədə geniş məlumat verildiyini, hər hansı dəyişikliyin olmadığı deyib və layihənin səsə qoyulmasını xahiş edib.

Gündəliyin sonuncu məsələsini – "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini Arzu Nağıyev diqqətə çatdırıb.

Bildirilib ki, qanun layihəsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Prezidenti tərəfindən irəli sürülüb. Təklif edilən dəyişikliyə əsasən, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşlarının bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə ölkəmizin kəşfiyyat və əks-kəşfiyyat subyektlərinin hüquqlarının genişləndirilərək xarici dövlətlərin xüsusi xidmət və hüquq-mühafizə orqanları ilə müvafiq proqramlar çərçivəsində kadrların hazırlanması, təkmilləşdirilməsi və ixtisaslarının artırılması sahəsində də əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulur. Müzakirələrdən sonra bütün qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.


Lalə Mehralı

# *Uşaqları mediada qorumalı, ya mediadan qorumalı?*

***Uşaq hüquqlarının və təhlükəsizliyinin təminatı, uşaqların mediada qorunması, habelə uşaqların mediadan qorunması anlayışı, əslində, çox geniş mövzudur. Hər dövrün öz uşaqlığı, öz uşaq problemləri və həll yolları olub, media bu istiqamətdə həlledici rol da oynayıb. Əslində, uşaq haqlarının müzakirəsi, mediada qorunması, sadəcə, onların təhlükəsizliyi yox, ümumilikdə dünyanın gələcəyinin təhlükəsizliyi deməkdir.***

Mediada uşaq hüquqlarının müdafiəsi uşaq haqları mövzusu kimi çeşidli və mərhələli prosesdir. Media dünyanı səsli, görüntülü və yazılı tora salmış böyük bir hörümçəkdir. Media anlayışı yekdil fikir ifadə etsə də, dinə, irqə, coğrafiyaya, dilə görə fərqli problemləri ola bilir. İnkişaf etmiş yeni dünya qaydalarına görə ortaq media anlayışı çox məhduddur və qaydalar hər ölkəyə görə dəyişə bilir.

Uşaq haqları və media mövzusunun da, əslində, ucu-bucağı yoxdur. Uşağın mediada necə, nə cür təmsil olunması, müzakirə edilməsi, yer alması uşaq haqları ilə uyğunlaşmalı, biri digərini tapdamamalıdır. Uşaqların ən çox təmasa məruz qaldığı media növü olan televiziyaların üzərinə bu işdə çox böyük məsuliyyət düşür. Günlərinin müəyyən hissəsini televizor qarşısında keçirən uşaqlar efirdə tərbiyələrinə, sağlamlıqlarına, psixoloji inkişaflarına zərər verəcək material görməməlidir. Amma...

Dəfələrlə şahidi olmuşuq, sosial proqram adı verilən efir bazarından kadrlar paylaşılır sosial şəbəkələrdə. Azyaşlı uşaqları çıxarırlar efirə, ata-anası qınaq atəşinə tutulur. Guya yardım məqsədi ilə çıxarılıb efirə, amma siz də, mən də bilirik ki, buradakı əsl məqsəd reklamdır, reytinqdir. Uşaqlara yardım etmək istəyən peşəkar jurnalist, aparıcı o yardımı uşaqları efirə çıxarmadan, üzlərini göstərmədən, aləmə car çəkmədən də edə bilər. Amma bu halda reytinq qazana bilmir, reklam edə bilmir deyə azyaşlını efirdə istismar edir, ağlatmağa, göz yaşları üzərindən pul qazanmağa çalışır.

Məşhur bir hüquqşünas qonaqları da olur bu tip proqramların. Hüquqdan zərrə anlamayan hüquqşünas! Hansısa bir kənddə fermada işləyən, orada yaşayan, öz yağı ilə qovrulan ailəyə sanki küçədə zibil eşən siçovula baxar kimi baxan, insanlıqdan zərrə qədər pay almayan insan. Qınağın biri 3 qəpik, təhqir havayı. Bir dəfə bir verilişdə hətta fağır, heç kimlə işi olmayan atanı narkoman, uşaqlarını ağıldankəm, gerizəkalı elan etdilər. Ata ömründə siqaret belə çəkmədiyini deyir, mikrafonu söndürürlər.

Ailəni çoxuşaqlı olduğuna görə az qalırlar edam etsinlər. Axı sizdən kimsə xahiş etməyib bu ailəni efirə çıxarın, yardım toplayın. O ailə heç sizin varlığınızdan belə xəbərdar deyil. Öz şounuza rəng qatmaq, düşmüş reytinqinizi qaldırmaq istəyəndə yada çoxuşaqlı, kasıb ailə düşür. Siz yaxşılıq edirsiniz? Sizin yaxşılığınız başınıza dəysin! Yaxşılığı belə etmirlər.

Bu jurnalistika deyil, bu media deyil. Peşəkarlıq belə olmur. İndi biz necə edək? Peşəkar jurnalist olaraq uşaqları mediada qoruyaq, ya valideyn kimi uşaqlarımızı mediadan qoruyaq? Uşaqları mediadan qorumaq ehtiyacı duymaqdansa, uşaqları etibar edə biləcəyimiz bir media sistemi formalaşdırmaq daha əlverişli olmazdı? Biz övladımız efirdə kimə, nəyə baxır deyə narahat olmamalıyıq, efirdə peşəkarlar var deyə övladımızın izləyəcəyi proqramlardan arxayınlıq hiss etməliyik. Amma çox təəssüf ki, bu gün dünya mediası təcavüzə məruz qalan körpələrin üzünü açıq nümayiş etdirəcək, adını aydın yazacaq vəziyyətə gəlib çıxıb.



# İnformasiya və kommunikasiyaların inkişaf etdirilməsi prioritetdir

***Dünyamızı artıq informasiya və kommunikasiya texnologiyaları olmadan təsəvvür etmək qətiyyən mümkün deyil. Çünki, informasiya və kommunikasiya texnologiyalarının təsir dairəsi dövlət strukturlarını, vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti və bütövlükdə insanların həyat tərzini əhatə edib. Deməli, cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilən informasiya və kommunikasiya texnologiyaları elə inkişafı təmin etməkdədir.***

Etiraf etmək lazımdır ki, davamlı olaraq inkişaf etməkdə olan istənilən cəmiyyət məhz informasiya və kommunikasiya texnologiyaları sayəsində inkişafdadır. Təsadüfi deyil ki, bütün sahələri əhatə edən, eləcə də bütün sahələrə siraət edən informasiya və kommunikasiya texnologiyalarının tətbiq dərəcəsi hər bir ölkənin, hər bir cəmiyyətin elmi, iqtisadi potensialının göstəricisi olaraq qəbul edilir. Əvvəla, ona görə ki, cəmiyyətin inkişafı ilk növbədə məhz informasiya və kommunikasiya texnologiyaları ilə mümkündür. Heç bir inkişaf etməkdə olan cəmiyyəti informasiya və kommunikasiya texnologiyaları olmadan qətiyyən ağıla belə gətirmək olmur. Digər tərəfdən də indi bütün sahələrdə məhz informasiya və kommunikasiya texnologiyalarından istifadə edilirsə, oz zaman həqiqətən də məhz cəmiyyətin inkuşafı informasiya və kommunikasiya texnologiyalarının tətbiq dərəcəsindən asılı olur.

Heç şübhəsiz ki, hər bir ölkənin özünəməxsus inkişaf istiqamətindən, tempindən, ələlxüsus da imkanlarından bilavasitə asılı olaraq da informasiya və kommunikasiya texnologiyaları, yeni texnologiyalar tətbiqi olunur. Bu isə o deməkdir ki, informasiya və kommunikasiya texnologiyalarının tətbiqi bütün dünyada heç də bərabər şəkildə deyil. Onu da etiraf etmək lazımdır ki, hal-hazırda ölkələrin bir-biri ilə rəqabət aparmaq qabiliyyəti də məhz informasiya və kommunikasiyaların tətbiqi səviyyəsinin hansı dərəcədə olması ilə ölçülür. Xüsusən də nəzərə almaq lazımdır ki, dövrümüzdə, ələlxüsus da son onillikdə dünya bazarında elektron ticarətin rolunun əhəmiyyətli dərəcədə artması informasiya və kommunikasiya texnologiyalarının tətbiqini daha da aktuallaşdırır. Deməli, həmin texnologiların inkişaf etdirilməsi və tətbiqinin daha da genişləndirilməsi günü-gündən aktuallaşır, hər bir ölkə üçün prioritet hesab olunur.

Bütün dünya ölkələrində, hər bir ölkədə, hər bir cəmiyyətdə olduğu kimi, Azərbaycanda da informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi prioritet məsələdir. Əlbəttə ki, ölkəmizdə də bu texnologiyaların tətbiqinə xüsusi önəm verilməsi, inkişaf etdirilməsi səbəbsiz və əbəs yerə deyil. Əvvəla ona görə ki, qeyd olunduğu kimi müasir dünyamız informasiya və kommunikasiya texnologiyaları olmada təsəvvür belə edilən deyil. Hər sahədə yeni texnologiyalardan istifadəyə üstünlük verilməsi inkişafa zəmin yaradır. Digər tərəfdən də axı həmin texnologiyaların tətbiqinin səviyyəti məhz müasir dünyada ölkələrlə rəqabət aparmaq qabiliyyətinin göstəricisi sayılır. Bu gün informasiya və kommunikasiya texnologiyaları sahəsinin inkişaf tempinə, eləcə də səviyyəsinə görə ölkəmizin fərqləndiyini qətiyyən təkzib etmək mümkün deyil. Ona görə təkzib etmək mümkün deyil ki, informasiya və kommunikasiya texnologiyaları həm də ölkəmizin sosial-iqtisadi həyatında mühüm rol oynayır. Bu səbəbdəndir ki, həmin sahənin davamlı şəkildə inkişaf etdirilməsinə dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı var. İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi məqsədi ilə aparılan islahatlar göz önündədir. Məhz həmin islahatlar deyilənləri təsdiq edir. Unutmaq lazım deyil ki, qeyd olunan islahatlarda da məqsəd innovasiya yönümlü fəaliyyətin daha da inkişaf etdirilməsi, gücləndirilməsi, daha informativ cəmiyyətin qurulmasıdır. Bəli, daha informativ cəmiyyət naminə dövlətimizin öz dəstəyini zərrə qədər də əsirgəmədiyini, xüsusi diqqət və qayğını hər birimiz müşahidə edirik. Məhz həmin dəstəyin, diqqət və qayğının sayəsində inkişafı da görürük və bir daha əmin oluruq ki, diqqətin, qayğının, dəstəyin rolu da danılmazdır. İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi üzrə innovasiya fəaliyyəti ilə məşğul olan subyektlərə stimullaşdırıcı xarakterli maliyyə ayrılması, müxtəlif yeni texnoloji vasitələr və mexanizmlərin hazırlanması istiqamətlərində yardım məhz dövlətimizin dəstəyidir və bunu hər birimiz çox yaxşı görürük.

Artıq çoxdandır ki, tətbiq olunan "Elektron Hökumət" ölkəmizdə inkişaf dinamikasını daha da sürətləndirən amillərdəndir. Ona görə ki, bunun reallaşdırılması, tətbiqi əvvəla, dövlət qulluqçuları və vətəndaşlar arasında münasibətləri sadələşdirmək və şəffaflaşdırmaq baxımından əvəzsizdir. Digər tərəfdən də müasir texnologiyaların imkanlarından istifadə edilməsi, xüsusilə "Elektron Hökumət" ölkə vətəndaşlarına göstərilən xidmətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması deməkdir. Xüsusilə bürokratik əngəllərin aradan qaldırılması üçün əvəzsiz sayılan elektron xidmətlərin göstərilməsinə artıq əksər dövlət orqanlarında rast gəlirik. Eyni zamanda, "ASAN xidmət" özü ölkəmizdə elektron xidmətlərin yaradılması istiqamətində ən parlaq nümunə sayılır və bu xidmət də öz növbəsində, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması, sürətləndirilməsi məqsədi daşıyır. Xüsusilə diqqətə çatdırmaq lazımdır ki, vahid məkanda operativlik, şəffaflıq, müasirlik, texnoloji imkanların yüksəkliyi kimi prinsiplərə uyğun şəkildə dövlət xidmətlərinin və özəl xidmətlərin göstərilməsi əsasında formalaşdırılan standartlar məhz dövlət başçısının, cənab Prezident İlham Əliyevin qarşıya qoyduğu əsas vəzifələrdəndir və prioritet məsələdir.

Döyüş meydanında savaş başa çatsa da informasiya müstəvisində hələ də mübarizəmiz davam etməkdədir. Hələ nə qədər davam edəcəyi barədə də bir söz demək olmaz. Əgər bizim qonşuluğumuzda bizə məxsus olan dəyərlərə sahib çıxmaq istəyən, torpaqlarımıza sahib olmaq iddiasında olan, milli mətbəximizi, musiqimizi, incəsənətimizi, ümumiyyətlə bizə məxsus olan nə varsa, hamısını özününküləşdirmək istəyən mənfur qonşularımız varsa, deməli, informasiya cəbhəsində mübarizə heç bitənə də oxşamır. Belə çıxır ki, informasiya və kommunikasiya texnologiların tətbiqi, daha geniş istifadəsi, inkişafı bundan sonra daha böyük diqqət mərkəzində olmalıdır və dövlətimiz bu sahəyə göstərdiyi diqqətə görə, xüsusən haqlıdır.

Bir halda ki, bizim düşmənlərimiz barəmizdə yalan informasiyalar yaymağa çalışırlar, ən azından tariximizi saxtalaşdırmaq üçün dəridən-qabıqdan çıxırlar, deməli, biz döyüş meydanında olduğu kimi, informasiya müharibəsində də qalib olmaq naminə informasiya və kommunikasiyaların inkişaf etdirilməsinə, tətbiqinə diqqəti daha da artırmalıyıq. Tariximizi, mədəniyyətimizi, bizə məxsus olan dəyərləri, elə qələbəmizi də, uğurlarımızı da, haqlı, ədalətli mövqeyimizi də dünyaya çatdırmaq bu gün ən ümdə, ən aktual məsələ hesab olunur ki, bu məqamda artıq informasiya və kommunikasiyaların rolunu qətiyyən danmaq olmaz. Onu da unutmaq lazım deyil ki, informasiya cəbhəsində də qələbə bu gün hər zaman olduğundan daha vacib hesab olunur. Bu isə onu deməyə əsas verir ki, informasiya və kommunikasiyaların bundan sonra da inkişaf etdirilməsi həqiqətən də prioritetdir.

***İnam Hacıyev***

# ABŞ-da kürsü savaşının finalı

***Çox yaxında milyonlarla amerikalı iki prezidentliyə namizəddən birinə səs vermək üçün seçki məntəqələrinə gedəcək. Onların kimə, hazırkı vitse-prezident, Demokratlar Partiyasının nümayəndəsi Kamala Harrisə, yoxsa keçmiş prezident, respublikaçı Donald Trampa səs verəcəkləri bəlli olacaq. Sosioloji məlumatlardan görünür ki, seçicilər kimə üstünlük verəcəklərini hələlik müəyyən etməkdə çətinlik çəkirlər. Hər iki siyasətçinin reytinqi təxminən bərabərdir. Bu arada, ABŞ tarixində ən dramatik və qeyri-adi hadisələrdən biri olan cari seçki kampaniyasında baş verən hadisələr heç bir şübhə yeri qoymur ki, amerikalıların etdiyi seçim təkcə öz ölkələri üçün deyil, bütün dünya üçün taleyüklü ola bilər. İndi beynəlxalq məsələlərdə ABŞ-dan çox şey asılıdır. Həm Tramp və həm də Harris təkcə ölkənin inkişafının diametral şəkildə əks istiqamətlərini deyil, həm də Amerikanın xarici siyasətinin necə olması lazım olduğuna dair fərqli baxışları təcəssüm etdirir.***



## *Ağ Ev uğrunda mübarizənin nəticəsi bir neçə münaqişənin gedişatını tamamilə dəyişə bilər*




Düzünü desək, noyabrın 5-də amerikalılar təkcə prezidenti yox, həm də konqresmenləri yenidən seçiləcəklər. Nümayəndələr Palatasının bütün 435 üzvü və 100 senatordan 34-ü, bundan əlavə, yerli seçkilər keçiriləcək. 11 ştatda qubernatorlar seçiləcək, onların bir çoxunda dövlət və bələdiyyə qanunvericilik məclislərinin tərkibi müəyyən ediləcək. Mer seçkiləri və bəzi bölgələrdə yerli referendumlar da keçiriləcək, o cümlədən heç bir yerli xarakter daşımayan mövzular - aborta icazə verməkdən marixuananın istifadəsinin dekriminallaşdırılmasına qədər məsələlərə aydınlıq gətiriləcək. Bütün bunlar Amerika üçün vacibdir. Xarici ölkələr üçün isə əsas əhəmiyyət kəsb etdiyi kimi, bir-biri ilə sıx əlaqəli sualların cavablarına verilir: Ağ Ev rəhbərinin kreslosunu kim tutacaq və Konqresdə qüvvələr balansı necə olacaq.

The Economist jurnalı amerikalı politoloqların əhəmiyyətli bir hissəsinin ümumiyyətlə paylaşdığı bir proqnoz dərc edib. Buna əsasən, Demokratlar və Respublikaçılar yerlərini dəyişəcəklər. İndi birincisi Senatı, ikincisi Nümayəndələr Palatasını idarə edir, amma bunun əksi olacaq. Eyni zamanda, “The Economist” etiraf edir (hətta bunu çox ehtimal edir) seçkilər nəticəsində partiyalardan birinin Konqresin hər iki palatasında həm prezidentlik, həm də cüzi səs çoxluğu əldə edəcəyini bildirir. Bu ssenari cəmiyyətdə yüksək dərəcədə qütbləşmə ilə dəstəklənir. Tipik olaraq, amerikalılar dövlət başçısı və qanunvericilərin seçkilərini aydın şəkildə ayırırlar. Belə olur ki, seçici bir partiyanın prezidentliyə namizədinə, digər partiyanın senatoruna və ya Nümayəndələr Palatasının üzvünə səs verir. Bu dəfə, görünür, belə olmayacaq. Amerikalılar medianın və namizədlərin özlərinin səyləri ilə demokratlara səs verməklə Harrisə, respublikaçıları dəstəkləməklə Trampı dəstəklədiklərinə inanmağa şərt qoyurlar.

ABŞ seçiciləri seçimlərindən dramatik dəyişikliklər gözləyirlər. Tramp miqrasiya siyasətinin kəskin şəkildə sərtləşdirilməsinə, bürokratiyanın sarsıdılmasına və Respublikaçılar Partiyasının mühafizəkar hissəsinin müxtəlif proqram müddəalarının həyata keçirilməsinə - məktəblərdə Darvinin nəzəriyyəsinin tədrisinin ləğvinə qədər kursu təcəssüm etdirir. Harris öz növbəsində, yeni nəslin siyasətçisi olduğuna dair əminliklərinə baxmayaraq, iki Demokrat administrasiyasının - Cozef Bayden və Barak Obamanın kursunun davamlılığı ilə əlaqələndirilir, lakin onun müdafiə etdiyi Demokrat Partiyasının mütərəqqi (əslində sosialist) hissəsi deyilən solçu gündəmə əvvəlkindən daha çox diqqət yetirilir. Hər iki namizəd öz kampaniyasını rəqibini şeytanlaşdırmaq üzərində qurur. Demokratlar Trampı Hitlerdən başqa heç nə ilə müqayisə etmirlər. Trampın özü isə amerikalıları “kommunist Harrisin” hakimiyyətə gəlməsi perspektivi ilə qorxudur. Təkcə bu, seçkilərin, ən əsası, nəticələrinin yekunlaşdırılmasının rahat keçməyəcəyi ehtimalını artırır. Ağ Ev, sadəcə olaraq, namizədlərin bir-birini təsvir etdiyi şeytana təslim olmur.

Oktyabr ayında Trampın rəqibinin qələbəsini tanımadığına dair aydın əlamətlər ortaya çıxdı. Ən azı bir ştatda, Pensilvaniyada Respublikaçılar məhkəmədə erkən səsvermənin bütövlüyünə etiraz ediblər. Və bu seçkilərdə çox mühüm rol oynayacaq. Florida Universitetinin məlumatına görə, oktyabrın sonunda 50 milyondan çox amerikalı erkən (poçt və şəxsən) səs verib. Onların arasında xüsusilə 65 yaşdan yuxarı insanlar, yəni bir çox Trampçıların əmin olduğu kimi 2020-ci il seçkilərinin saxtalaşdırıldığı seçicilər kateqoriyası var.

Dörd il əvvəl olduğu kimi, səsvermədən sonra çoxsaylı qarşıdurmaların, döyüşlərin olacağı ehtimal edilir. ABŞ-ın siyasi sisteminə gəldikdə, əvvəlcədən demək olar ki, tənəzzül baş verməyəcək. Çünki sistem bundan da ağır sınaqlara tap gətirə bilib. Yeni prezident müəyyən edildikdə, o, komandası və partiyası Baydenin xarici siyasət ”mirası” ilə məşğul olacaq. Baydenin dövründə üç ən kəskin böhran baş vermişdi - Yaxın Şərqdəki müharibə, Çinlə qarşıdurma və nəhayət, Rusiya-Ukrayna müharibəsi.

Xarici siyasət məsələləri ənənəvi olaraq Amerika seçki kampaniyalarında ikinci dərəcəli rol oynayır. Ona görə, namizəd öz kursunun real konturlarını cızmaq üçün yox, minimum spesifikliyi, maksimumu isə öz seçicisini razı salmaq üçün verdiyi qeyri-müəyyən vədləri ödəyə bilər. Tramp və onun vitse-prezidentliyə namizədi J.D.Vens tərəfindən Rusiya-Ukrayna münaqişəsi ilə bağlı bəyanatlar da bu ruhdadır.



***Tramp vaxtaşırı - minimum təfərrüatlarla da olsa - "Putin və Zelenski arasında sövdələşmə" adlandırdığı şeyə nail olacağını deyir. Onun təqdimatında hər şey sadə olacaq: Ağ Ev Rusiya və Ukrayna liderlərini danışıqlar masası arxasına keçirəcək, onları qarşılıqlı faydalı şərtlərlə sülh bağlamağa məcbur edəcək. Onlardan hər hansı biri müqavimət göstərsə, ABŞ ona təzyiq göstərəcək. Məsələn, Ukraynaya yardım kəsiləcək və ya əksinə, Rusiya Federasiyası qarşısında əlçatmaz üstünlüyü artıracaq.***



Bir sözlə, onların sözləri bir neçə fikirdən qaynaqlanır. Rusiya Federasiyası ilə Ukrayna arasındakı münaqişə və ABŞ-ın buradakı rolu, Trampın və xüsusən də Vensin tənqid etdiyi İraq və Əfqanıstan müharibələrində Amerikanın iştirakı kimi bir şeydir (Respublikaçı siyasətçilərin təkidi ilə Respublikaçı prezident Corc W. Buş bu ölkələrə qoşun göndərdi). Bayden əvvəlcə qan tökülməsinin qarşısını ala bilmədi, daha sonra Amerika vergi ödəyicilərinin pullarını xərcləyərək bu işə qarışdı, lakin bu xərclərin son məqsədinin nə olduğunu dəqiq başa düşmür. Nüvə silahı olan dövləti məğlub etmək çətin və ən əsası təhlükəlidir.

Respublikaçılar Səddam Hüseynin devrilməsindən sonra İraqda baş verənləri xatırlayırlar. Ona görə də başqa məqsədə ehtiyac var.

Tramp vaxtaşırı - minimum təfərrüatlarla da olsa - "Putin və Zelenski arasında sövdələşmə" adlandırdığı şeyə nail olacağını deyir. Onun təqdimatında hər şey sadə olacaq: Ağ Ev Rusiya və Ukrayna liderlərini danışıqlar masası arxasına keçirəcək, onları qarşılıqlı faydalı şərtlərlə sülh bağlamağa məcbur edəcək. Onlardan hər hansı biri müqavimət göstərsə, ABŞ ona təzyiq göstərəcək. Məsələn, Ukraynaya yardım kəsiləcək və ya əksinə, Rusiya Federasiyası qarşısında əlçatmaz üstünlüyü artıracaq. Lakin Tramp əmin edir ki, bu, belə olmayacaq: onun həm Vladimir Putin, həm də Vladimir Zelenski ilə yaxşı münasibətləri var.

Bütün bunlar adi trumpist seçicinin siyasətin necə aparıldığına dair fikrinə çox uyğundur. Demokratik dövlətdə yaşayanlar üçün kompromis problemin həllinin təbii formasıdır. Münaqişə tərəflərdən biri digərini məhv etmək istəyəndə yox, onların arasında anlaşılmazlıq yarananda yaranır - sözün yaxşı mənasında, küçədə amerikalı kişi belə mübahisə edir. Bəs Tramp və Vens qalib gəlsələr, seçki kampaniyası bəyanatlarına sadiq qalacaqlarmı? Xatırlayaq ki, Trampın ilk prezidentliyi dövründə də onlar Ukrayna ilə bağlı Kremlin maraqlarına uyğun hansısa sövdələşmənin olacağını gözləyirdilər. Əvəzində Trampın prezidentliyi sərt anti-Rusiya sanksiyaları və Amerikanın öldürücü silahlarının Kiyevə ilk çatdırılması ilə yadda qalacaq. Bunu yalnız demokratların təzyiqi ilə izah etmək sadəlövhlükdür. Daha doğrusu, siyasətçi Tramp biznesmen Tramp kimi davrandı: o, müəyyən anda faydalı olan şəkildə hərəkət etdi. Bu o deməkdir ki, onun Rusiya Federasiyasına qarşı gələcək kursu bir çox cəhətdən sirrdir. Harris kursu da belədir.

ABŞ hökumətindəki vitse-prezident xarici siyasətə müəyyən diqqəti cəlb edən bir vəzifədir. Əgər dövlət başçısının mümkün varisinə nə isə tapşırılıbsa, o, onu yerinə yetirmək məcburiyyətindədir. Bununla belə, Harris xarici siyasət arenasında vitse-prezident kimi təəccüblü dərəcədə az çıxış edib. Yadda qalan isə onun uğursuzluğudur: Latın Amerikası ölkələri ilə razılaşmalar vasitəsilə ABŞ-a qeyri-qanuni miqrant axınını azaltmaq üçün uğursuz cəhd. Buna görə də, seçicilərin Harrisdən onun xarici siyasət planları ilə bağlı daha konkret məlumat gözləmək arzusu var idi.

Trumpçular İsrailin sadiq tərəfdarları olsalar da, Demokratik Partiya həm İsrail, həm də Fələstin tərəfdarı ilə xoş münasibətlərə malikdir. Harris nə İsrail tərəfdarlarının, nə də əleyhdarlarının səsini itirməməyə çalışır. Tramp isə İsrailin hərəkətlərini demək olar ki, tənqid etməməyi özünə rəva bilir. Harris bəzən şifahi tarazlıq hərəkətləri ilə möcüzələr göstərərək Benyamin Netanyahu hökumətini qınayır və İranı ABŞ-ın əsas düşməni adlandırır. Eyni zamanda, o, İsrailə dəstəkdən imtina etmək vədini vermir. Əslində Baydenin siyasəti budur: Livan və Qəzza zolağında əməliyyatların "ifratlarını" pisləyərək yəhudi dövlətini dəstəkləyin.

Harris yəqin ki, Rusiya-Ukrayna münaqişəsində Ağ Evin hazırkı kursunu izləməyə çalışacaq, baxmayaraq ki, onun müəlliflərindən biri, dövlət katibi Antoni Blinken artıq onun administrasiyasında işləməyəcəyini bəyan edib. Yəqin ona görə ki, nə o, nə də onun vitse-prezidentliyə namizədi Tim Valz bu mövzuda demək olar ki, heç nə deməyiblər. Bu, onların Trampa qarşı guya "Ukraynanı Putinə təslim edəcəyi" ilə bağlı ittihamlarından və Kiyevin maraqlarını nəzərə almadan Moskva ilə danışıqlara getməyəcəyinə dair qeyri-müəyyən vəddən başqadır. Sonuncu həm Rusiya Federasiyası ilə "sövdələşmənin" öz versiyasını bağlamaq ehtimalına işarə kimi, həm də qoşunları 1991-ci il sərhədlərinə çatana qədər Ukraynanı dəstəkləməyə davam edəcəyinə dair vəd kimi şərh edilə bilər.

Bununla belə, Tramp və Harrisin Rusiya Federasiyasına qarşı eyni siyasəti aparmayacağına inanmağa əsas var. Trampçılar Ukraynadakı münaqişəyə yalnız Çinlə münasibətlər prizmasından baxırlar. Tramp və Vens nöqteyi-nəzərindən Çinin fəaliyyəti ABŞ üçün əsas təhlükədir. Onlar Rusiya-Ukrayna münaqişəsini Rusiya Federasiyasını ÇXR-ə yaxınlaşdıran, buna görə də ÇXR-i gücləndirən amil hesab edirlər. Demokratlar bu yaxınlaşmadan daha az narahatdırlar. Onlara yaxın ekspertlərin və mətbuatın şərhlərinə əsasən, demokratlar hesab edirlər ki, yaranmaqda olan iki ölkə arasında anti-Qərb ittifaqı deyil, Rusiya özünü xarici siyasət və iqtisadi çıxılmaz vəziyyətə salır. Onların nöqteyi-nəzərindən, Kiyevlə Moskva arasında təcili razılaşma axtarmaq yox, Rusiya Federasiyasının Qərblə əməkdaşlığın düşmənçilikdən daha üstün olduğuna qərar verənə qədər gözləmək lazımdır.

**V.VƏLİYEV**



# Əli Kərimli özünü “şipion” kimi aparır

***COP 29-a saylı günlər qaldıqca yerli və xarici məkrli qüvvələr daha geniş və intensiv formada Azərbaycana qarşı şər və böhtan kampaniyası aparırlar. Gah AŞPA, Avropa Parlamentinin ermənipərəs deputatları Azərbaycanda insan hüquqlarının pozulmasından, mətbuatın fəaliyyətinə guya əngəllərin yaradılmasından danışıb, anormal qətnamələr qəbul edir, gah da Avropadakı nasistlərin nəzarət etdiyi siyasi mərkəzlər ölkəmizdə “siyasi məhbus”ların olması haqqında cəfəng iddialarla çıxış edirlər.***



Elə hallar da olur ki, Qarabağın işğalında və insanların kütəvi şəkil də qətlində iştirak etmiş terrorçu məxluqların azad edilməsi ilə bağlı hikkəli bəyanatlar səsləndirirlər. Məqsəd öz ağılları ilə ölkəmizə təzyiq etmək və hansısa məkrli planlarını reallaşdırmaqdır. Lakin Azərbaycan hüquqi dövlətdir və hər bir atılan addım, verilən qərarlar hüququn aliliyinə söykənir. Ona görə də, istənilən terrorçulara xas hədə xarakterli mesajlar Azərbaycan tərəfindən qətiyyətlə rədd edilir və bu prinsipial mövqe heç zaman dəyişməyəcək.Təbii ki, yerli və xarici antimilli işbazlar Azərbaycan dövlətinin qətiyyətli mövqedə olduğunu başa düşürlər, lakin erməni lobbisi qarşısında üzərlərinə öhdəliklər götürdüklərindən fəaliyyətlərini dayandırmırlar. Əksinə, israrlı şəkildə ölkəmiz əleyhinə kampaniyalarını davam etdirirlər. Diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycan haqqında irəli sürülən iddiaların heç birinin cüzi belə əsası yoxdur. Misal üçün, “siyasi məhbus”ların sayı, insan hüquqlarının pozulması və mediaya qarşı təzyiqlərin olması haqqında səslənən iddialar heç bir fakta və ciddi mənbəyə əsaslanmır. Sadəcə, əvvəllər hanısa ölkə haqqında hazırladıqları hesabatı redaktə etmədən, araşdırma aparıb dəqiqləşdirmələr aparmadan Azərbaycanın adına yazıb paylaşırlar.

### Əli Kərimli Leyla Yunusdan heç nə ilə fərqlənmir

Azərbaycan haqqında şər və böhtanların “hesabata” daxil edilməsində daha çox ölkəmizdə müxtəlif cinayətlər törədib, xaricə qaçan azərbaycanlı mühacirlərin məlumatları əsasında hazırlanaraq paylaşılır. Bir qədər əvvəl Almaniyadakı nasistlərin əsas ideoloqlarından olan Frank Şveber özü etiraf etmişdir ki, o, tez-tez azərbaycanlı “hüquq müdafiəçisi” Leyla Yunusla məktublaşır: “Ötən həftə Leyla Yunusdan məktub aldım. O Azərbaycanda 319 “siyasi məhbus”un olduğunu, medianın vəziyyətinin ağır olduğunu və insan azadlıqlarına qarşı təzyiqlərin olmasına dair fikirlər yazmışdı”. Buradan görünür ki, F.Şveber Azərbaycana qarşı şər və böhtanlarını Leyla Yunus, Əli Kərimli, Arif Məmmədov, Trol Sadıqlı və bu kimi digər Azərbaycan xalqına qarşı düşmən mövqe sərgiləyən ünsürlərin təqdim etdikləri yalan və böhtandan ibarət məlumatlar əsasında hazırlayaraq paylaşıb. Əgər vicdanı olsa və səthi araşdırma aparsa idi, təqdim olunan məlumatların yalan olduğunu üzə çıxarardı. Lakin ona verilən informasiyanın marağına uyğun olduğu üçün araşdırmalara və ölkəmizin müəyyən strukturları ilə dəqiqləşdirməyə ehtiyac duymayıb. Söz yox ki, L.Yunus da uydurma məlumatları havadan götürməyib. Ona da “Siyasi məhbus”lar və digər məsələlərlə bağlı cəfəng “məlumatları” AXCP sədri Əli Kərimli çatdırıb. Çünki Ə.Kərimli tez-tez Azərbaycanda “siyasi məhbus”ların olması haqqında sayıqlamalarla çıxış edir. Bildirir ki, guya Azərbaycanda siyasi fəaliyyətlərinə görə həbs olunan 319 nəfər var. Ə.Kərimli sosial şəbəkə hesabında yazır ki, COP 29 həqiqətən də Azərbaycanı dünyanın diqqət mərkəzinə gətirib və ölkələr, eləcə də beynəlxalq təşkilatlar bundan çıxış edərək Azərbaycandan 300-ə qədər siyasi məhbusun azad edilməsini tələb edirlər. Bununla o özü-özünü ifşa etmiş olur. Yəni göstərir ki, xaricdəki F.Şveber kimi nasistlərin Azərbaycan haqqında qondarma hesabatların paylaşılmasında və yüksək tribunalarda səsləndirilməsində onun da rolu var. Təbii ki, L.Yunus sadəcə, avtomobilin ehtiyat təkərindən başqa bir şey deyil. L.Yunus hər zaman Ermənistandakı qohumlarının tapşırıqlarını yerinə yetirib, bu gün də öz ampluasındadır və əlavə olaraq Ə.Kərimlinin düzüb-qoşub göndərdiyi qara siyahıları F.Şveberə göndərməklə icraçı olduğunu göstərir. Azərbaycanda qara siyahıların tərtib edilərək xaricdəki şəbəkə üzvlərinə göndərən əsas şəxs isə Ə.Kərimlidir. Ə.Kərimli bu yolla cəmiyyətdən qisas almağa çalışır. Çünki Azərbaycan cəmiyyəti onu qəbul etmir və səsləndirdiyi fikirləri, irəli sürdüyü separatçı ideyaları rədd edir.

### Cəbhəçi trollar sosial şəbəkələrdə saxta səhifələrin sayını artırmaqla böhtanlarının sferasını genişləndirməyə çalışırlar

Əli Kərimli və ətrafında olan troll yığnağı xarici ölkələrdəki qaranlıq dairələrə və bəzi beynəlxalq təşkilatlara

Azərbaycan haqqında şər və böhtan xarakterli məlumatlar göndərməklə yanaşı, sosial şəbəkələrdə də qarayaxma kampaniyasını gücləndirməyə cəhdlər göstərməyə çalışırlar. Bu məqsədlər də müxtəlif sosial şəbəkələrdə AXCP Rəyasət Heyətinin üzvü İlham Hüseynin və Ə.Kərimlinin müavini Fuad Qəhrəmanlının rəhbərliyi ilə müxtəlif adlar altında çoxsaylı saxta səhifələr hazırlanıb. Həmin saxta səhifələr göndərilən tezislər əsasında COP29-la bağlı əsassız məlumatlar paylaşır, erməni maraqlarına xidmət edən statuslar yayırlar. Göstərməyə çalışırlar ki, guya COP29-a hazırlıqda və keçirilməsində problemlər var. Hətta AXCP-dəki mənbəmizin verdiyi məlumata görə, Əli Kərimli və Milli Şuranın rəhbəri Cəmil Həsənli COP29-un keçirildiyi günlərdə təxribat xarakterli icazəsiz aksiyalar keçirməyi və həmin pozucu aksiyanı sosial şəbəkələr vasitəsi ilə yaymağı da planlaşdırırlar. Təbii ki, onların nə planlaşdırmalarından və hansı yönümlü açıqlamalar verməl追rindən, eləcə də “donos”lar ünvanlamalarından asılı olmayaraq COP29 konfransı uğurla özünün işinə başlayıb, dünyanın maraqlarına cavab verən qərarların qəbulu ilə yekunlaşacaq. Hay-küy qaldırmaq və əsassız böhtanlarla çıxış etmək ancaq dağıdıcı müxalifətə və xaricdəki antimilli ünsürlərə qalacaq.

***İLHAM ƏLİYEV***



# “İkinci dəfə ailə qurmaq ikrah hissi doğurmamalıdır”

***“Filan qadın ərindən boşanıb ikinci dəfə ərə getdi. Görürsüz də, digər qadınlara necə pis nümunədir?!”. Bu cür düşünənlərin təbirincə, boşanmış qadınlar cəmiyyətdə daş-qalaq olunmalıdır. Bu səbəbdən də Azərbaycan cəmiyyətində ailə qurmaq haqqında təsəvvürlər bir-birinə qarışıb. Maraqlıdır, müasir zəmanədə boşanmış qadınların ikinci dəfə ailə qurması niyə ikrah hissi doğurur? Məsələnin sosioloji və psixoloji tərəfləri necə izah olunmalıdır? SİA mövzu ilə bağlı sosioloq Əhməd Qəşəmoğlunun və psixoloq Vüsalə Əmiraslanovanın fikirlərini öyrənib.***



**Sosioloq Əhməd Qəşəmoğlu:** ”Boşanmış qadınlarla bağlı sosioloji problemlərimiz var. Qadın boşananda bizim cəmiyyət elə vəziyyətdədir ki, bir çoxları həmin qadına macəra obyekti kimi baxır. İkincisi, boşanmış qadınlar elə davranış sərgiləməlidirlər ki, onlara macəra obyekti kimi baxmasınlar. Qadın özünü daha ciddi aparsa, özünü obyekt kimi görməyə imkan verməsə, ona normal baxırlar. Uşağı ilə boşanan qadın var, uşaqsız boşanan qadın var. Onların da problemləri fərqlidir. Boşanmış qadının yanında uşaq olanda və qadın ailə quranda problemi fərqli olur. Uşaq olmayanda problem az olur. Ona görə cəmiyyətimiz indiki vaxtda boşanmış qadınlarla bağlı müəyyən sosial-psixoloji problemlərə malikdir. Biz bu istiqamətdə çalışmalıyıq ki, cəmiyyətimizdə normal münasibətlər yaranması üçün işlər aparaq. Bunun üçün boşanmış qadınların sosial müdafiəsi ilə bağlı dövlət orqanlarının üzərinə müəyyən işlər düşür. Bir çox halda kişilərin çoxu qadına qarşı zülmkarlığı çox olur, bilir ki, qadın boşansa, problemi çox olacaq. Ona görə də qadına qarşı zülmkar olur. Bilsə ki, boşanmış qadının həyatı ondan asılı deyil, elə rəftar etməz.

İndiki zamanda cəmiyyətimizdə bu sahədə ciddi problemlər, boşluqlar var. Çalışmalıyıq ki, boşluqları ortadan götürək. Bir tərəfdən sosial müdafiə məsələləridirsə, digər tərəfdən mənəvi məsələlərdir, başqa tərəfdən də cəmiyyətin özünü hazırlaması üçün kütləvi informasiya vasitələrində bəzi işlər getməlidir. Əvvəllər də tarixdə belə şeylər olub. Bu məsələlərə normal baxıblar. Cəmiyyətdə bu problemlər varsa, bununla bağlı düşünülmüş işlər görməyə ehtiyac var”.



**Psixoloq Vüsalə Əmiraslanova:** ”Əvvəlki dövrlərdə bu məsələyə daha fərqli yanaşırdılar. Amma tam da demək olmaz ki, hər yerdə ikrah hissi var. Səbəblər var, situasiyaya bağlı olan məsələlər var. Əlbəttə ki, boşanmış qadın sözü Azərbaycan cəmiyyətində birmənalı qarşılanmır. Düşünürəm ki, bəzən ikrah hissi ona görə yaranır ki, insanların öz daxili baxış bucaqları, hiss və düşüncələri fərqli olur. Amma ikinci dəfə ailə qurmaq pis deyil və bu ikrah hissi doğurmamalıdır. Psixoloji tərəfləri isə belə izah olunmalıdır ki, əgər qadının ailəsi nəyəsə görə dağılıbsa, özü də ikinci dəfə ailə qurmaq istəyirsə, niyə ailəsi olmamalıdır? Əgər burada övladlar məsələsi varsa, boşanmış qadının uşağına ayırdığı vaxta baxmaq lazımdır. Yaxud da, kifayət qədər uşağının tərbiyəsi ilə məşğul ola bilirmi? Uşaqların yaş məsələləri var. Uşağa necə izah etmək məsələsi də var. Hər şey izahla mümkündür. Uşaqlar da psixoloji dəstək alarsa, valideynlər də psixoloji dəstək alarsa, hər iki tərəf bunu normal qarşılayarsa, bu, pis addım deyil. Hətta daha gözəl addımdır. Çünki hər bir qadının ailəsi olmalıdır. Hər bir kişinin də ailəsi olmalıdır. Psixoloqlar da bunu aşılanmalıdırlar”.

***Söylü Ağazadə***

# Aleksandr Tixanski: “Erməni millətçiləri həm Rusiyaya, həm də “rusпərəst” adlandırdıqları Gürcüstan hökumətinə nifrət edirlər”

***Bu gün bir çox erməni millətçiləri, o cümlədən gürcü pasportu olanlar həm Rusiyaya, həm də “rusпərəst” adlandırdıqları Gürcüstan hökumətinə nifrət edirlər.***



Bu fikirləri hərbi-siyasi analitik, sosiologiya elmləri namizədi, Belarus Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun baş elmi işçisi Aleksandr Tixanski oktyabrın 26-da Gürcüstanda keçirilən parlament seçkiləri ərəfəsində və ondan sonra Ermənistanda gürcü müxalifətini dəstəkləyən bəyanatların səslənməsi faktlarını AZƏRTAC-a şərh edərkən bildirib.

Ekspert bu vəziyyəti erməni millətçilərinin Gürcüstanı Qərblə Rusiya arasında döyüş meydanına çevirmək istəyi ilə izah edib: “Erməni ekspertlər səsvermənin elektron formatda keçirilməsindən təəssüflənir, çünki seçkilərin nəticələrini saxtalaşdırmaq çətin idi. Qanun pozuntuları ilə bağlı faktlar o qədər də inandırıcı deyil. Seçki dairələrinin ən azı 75 faizində seçkilər elektron qaydada keçirildiyi üçün pozuntuların olduğunu söyləmək çətindir. Bəli, müəyyən problemlər var idi, amma ümumilikdə deyə bilərik ki, seçkilər bəzi nöqsanlarla baş tutmuş sayılır”.

Tixanski əlavə edib: “Gürcüstanda gedən proseslər, qonşu ölkədə siyasətin necə davam edəcəyi Ermənistan üçün önəmlidir. Belə ki, Ermənistanın ixrac və idxalının təxminən 70 faizi Gürcüstan ərazisindən keçir. Ermənilərin Gürcüstandakı iğtişaşlara verdiyi dəstək siyasi elitanın qonşu ölkədə hakimiyyəti dəyişməyə yönəlmiş hərəkətləri ilə izah olunur. Erməni elitası Mixeil Saakaşvilinin “Vahid Milli Hərəkat” partiyası ilə xarici agentlər haqqında qanunun qəbuluna qarşı birgə müraciət imzalayanda hamını təəccübləndirib. Ermənistanın siyasi elitasının bir hissəsinin Gürcüstan hakimiyyətinə qarşı çıxması, bu ölkənin daxili işlərinə qarışması ilə bağlı vəziyyətin özü unikaldır. Aydındır ki, erməni millətçiləri Gürcüstan müxalifəti illə eyni komandada işləyir. Siyasi elitanın bu hissəsi müəyyən ölkələrdə birləşərək bir-birini dəstəkləməyi xoşlayır. Onlar qarşılıqlı əlaqədə olur və postsovet dövlətlərini Rusiyadan ayırmaq üçün fəal işləyirlər. Beləliklə, Ermənistan iqtidarı və müxalifəti göstərdi ki, onlar da Qərbin sifarişi ilə hərəkət edirlər. Gürcüstanda seçkilərdən sonra vəziyyətin sabitliyini pozmaq üçün təxribatçılara, o cümlədən vicdan əzabı çəkmədən digər Gürcüstan vətəndaşlarını öldürməyə başlaya bilənlərə ehtiyac var. Çox təəssüf ki, həm Qərbdə, həm də qərbyönlü müxalifətdə belə insanlar var. Onların arasında etnik ermənilər və ikili vətəndaşlığı olanlar - erməni və gürcülər də var. O cümlədən Ermənistan Respublikasında daimi yaşayanlar və Qarabağdan olan zərərsizləşdirilməmiş yaraqlılar seçkiyə qədər Gürcüstana köçürülə bilər”.

Ekspert bununla bağlı xatırladıb ki, oxşar ssenari artıq NATO-nun Brüsseldəki mənzil-qərargahında müzakirə olunub və burada Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla alyans nümayəndələri arasında görüşlər keçirilib. Görüşdə Ermənistan xüsusi xidmət orqanlarının Gürcüstanda yaşayan etnik ermənilər arasında yaradılmış agent şəbəkəsinin köməyi ilə “aktiv tədbirlər” hazırladığı açıqlanıb.

“Ermənistanda işə götürülən şəxslərin iştirakı ilə fəal şəkildə hazırlıq işləri aparılır. Bu hadisələrə küçə toqquşmaları elementləri daxildir. Gözlənilir ki, yaxın gələcəkdə onlara Balkan ölkələrindən əvvəllər aktiv şəkildə Serbiya hökumətinə qarşı fəaliyyət göstərən ən təcrübəli mütəxəssislər də qoşulacaq. Gürcüstanda münaqişənin alovlanmasında bu cür təxribatçıların rolunu lazımınca qiymətləndirməmək olmaz. Bu baxımdan 2019-cu ilin yayında rusiyalı deputat Qavrilovun spiker kürsüsündə əyləşdirilməsindən sonra yaranmış emosional vəziyyətdən istifadə edən müxalifətin parlament binasını ələ keçirməyə cəhd etməsini xatırlatmaq yerinə düşər. Daha sonra Ermənistan vətəndaşları da saxlanılıb. Bu gün bir çox erməni millətçiləri, o cümlədən gürcü pasportu olanlar həm Rusiyaya, həm də “rusiyapərəst” adlandırdıqları Gürcüstan hökumətinə nifrət edirlər”, –deyə analitik vurğulayıb.

Tixanskinin fikrincə, əvvəllər Rusiyaya sevgi və ümid bəsləmiş bir çox erməni separatçıları indi ümidlərini Qərbə bağlayırlar.

“Öz xalqından dəfələrlə geosiyasi oyunlarda istifadə edən erməni millətçiləri Gürcüstanı Qərblə Rusiya arasında döyüş meydanına çevirmək istəyirlər. “Rusiyayönlü” erməni lobbisi qeyri-sabit vəziyyətdən sui-istifadə edərək Rusiya ordusunun Gürcüstana yenidən girməsini təhrik etməyə çalışır. Öz növbəsində, İrəvan yeni revanşist müharibənin baş verəcəyi təqdirdə Gürcüstana Qərbin hərbi tranziti üçün ərazi kimi baxır. Bu, Tbilisidə qərbyönlü müxalifətin hakimiyyətə gələrək Rusiyaya qarşı “ikinci cəbhə” açacağı halda baş verə bilər. Hər iki ssenari gürcü dövlətçiliyi üçün faciəli ola bilər. Ona görə də Gürcüstanda sabitlik və əmin-amanlıq yalnız Rusiya deyil, Türkiyə və Azərbaycanın da maraqlarına cavab verir”, - deyə ekspert sözlərini yekunlaşdırıb.

# Saxtakarlığa əsaslanan qətnamə çirkin məqsədlərin, planların bəhrəsidir



Avropa Parlamentinin qəbul etdiyi Azərbaycanda vəziyyət, insan hüquqlarının, beynəlxalq hüququn pozulması və Ermənistana münasibət haqqında qətnamə artıq ölkəmizə qarşı yönəldilmiş məkirli niyyətlərin, ikiüzlülüyün nümunəsidir. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.



Komitə sədri qeyd edib ki, Azərbaycana qarşı təsir mahiyyəti daşıyan saxta, əsassız faktlardan, yersiz iddialardan, tələb və təhdidlərdən ibarət olan bu sənəd Avropa Parlamentinin çirkin simasını, şovinist, irqçi mövqeyini bütün çalarları ilə sübut edir.

”Ölkəmizə qarşı yaramaz fəaliyyətdə olan ayrı-ayrı qrupların, maraqları, düşüncələri bu qətnamədə bir yerə cəm edilmişdir ki, bu da dövlətimizin beynəlxalq aləmdəki nüfuzuna, inkişafına kölgə salmaq məqsədi daşıyır. Bütün hallarda Ermənistana xüsusi qayğı və diqqət göstərilir, təcavüzkar ölkə silahlandırılır, maliyyə vəsaitləri təmin edilir, demokratik ölkə kimi dəyərləndirilir, ermənilərin çirkin əməlləri humanizm kimi təşviq olunur. Onların yeni müharibələr törətmələri üçün əsaslar hazırlanır, təlimatlar verilir. Qəbul olunmuş qətnamə xalqımızın qatillərinin azadlığa buraxılmasına tələb etmək, siyasi zorakılığın, faşizmə xidmətin, təcavüzə dəstəyin, beynəlxalq hüquqa, demokratiyaya, insan haqlarına hörmətsizliyin, parlament, deputat dəyərlərinin ayaqlar altına atılmasının, satılmasının, alçaldılmasının ifadəsidir və sülhə, əmin-amanlığa qarşıdır.

Azərbaycanı gözü götürməyən dairələr, ABŞ, xüsusilə də avropalı parlamentarilər bəşəriyyət üçün önəmli olan COP29-u da çox təəssüflər olsun, siyasətləşdirərək, Azərbaycana qarşı təsir vasitəsi kimi istifadə edir, bu tədbirin keçirilməsinə manеələr yaratmağa çalışırlar. Qərbin, Fransanın Ermənistanın və erməni lobbisinin bilavasitə sifarişi ilə hazırlanmış və yalan məlumatlara, hüquqi və tarixi saxtakarlığa əsaslanan bu qətnamə çirkin məqsədlərin, planların bəhrəsidir və beynəlxalq normaların, bəşəri dəyərlərin və prinsplərin, haqq-ədalət, insanlıq anlayışlarının, demokratik ənənələrin üzərindən xətt çəkir, həqiqətləri inkar edir və şəxsi mənafelərə, rüşvətə, dönüklüyə, saxtakarlığa hesablanıbdır. Bu, suverenliyimizə, inkişafımıza, dövlətimizin müstəqil siyasi kursuna xələl gətirməyə cəhddir və Avropa üçün yaxşı heç nə vəd etmir”, deyə Tahir Rzayev bildirib.

# Azərbaycana buraxılmayan “arzuolunmaz şəxs”lərin SAYI

***“Sərhəd Nəzarətinin Komandanlığı fəaliyyətə başladığı 2017-ci ildən etibarən axtarışda olan 26 min 865 nəfər saxlanılaraq aidiyyəti dövlət orqanlarına təhvil verilib, ümumilikdə 86 min 123 əməliyyat tapşırığı yerinə yetirilib”. SİA xəbər verir ki, bunu Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Nəzarətinin rəisi Elşən Verdiyev deyib.***




O qeyd edib ki, dövlət sərhədindən keçməyə hüquq verən sənədləri olmayan 58 min 503 nəfər barəsində müvafiq qərarlar qəbul edilib. “Eyni zamanda, müxtəlif səbəblərdən “arzuolunmaz şəxs” qismində 2 min 106 əcnəbi ölkə ərazisinə buraxılmayıb.

Qarşılıqlı əlaqədə olaraq qaçaqmal və narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində 3 min 599 halda aşkar edilərək götürülmüş qaçaqmalın ümumi təxmini dəyəri 442 milyon 227 min 857 manat təşkil edib, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə çərçivəsində 1028 halda ümumi çəkisi 7 ton 422 kiloqram 400 qram narkotik vasitə və 86 min 246 ədəd psixotrop həb aşkar edilərək qeyri-qanuni dövriyyədən çıxarılıb”, - E.Verdiyev bildirib.






# Dinləyin bu uşağı, sizə sözü var...!





***Mən kimin günahkar olduğunu anlayanda artıq çox gec olacaq. Elə sizin üçün də gec olacaq. Çünki o zaman illərlə xəstəxanalara aparıb-gətirdiyiniz və səhətində heç bir müsbət nəticəni görmədiyiniz övladınız olan mən yetkinlik yaşımda olacağam. İllərlə mənim sağalmağım yolunda çəkdiyiniz əziyyətin, xərcin hədər olduğunu anlayacaqsınız. Mən uşaqkən sağalacağıma hər gün ümid etdiyiniz halda, yeniyetmə yaşıma çatanda qüsurlu halımdan utanıb, xəcalət çəkəcəksiniz.***




Onda mənim işləməyən ayaqlarım, zəif görən gözlərim, yaxud normal olmayan beynim, qanımdakı müxtəlif problemlər sanki “dil” açıb sizə deyəcək: niyə evləndiniz? Sizi evlənməyə kim təhrik etdi? Dünyanın müasirliyindən, səhiyyənin inkişafından, mətbuatın bu qədər maarifləndirməsindən bixəbər olan ata-analarınızmı? Onlar “biz kənara qız verməmişik, bu adət-ənənələrimizi də davam etdirməliyik”,- dedilərmi? Əmi-bibi qızının əmi, bibi oğluyla, dayı-xala qızının dayı, xala oğluyla evlənməsi heç məntiqlə düzgün deyil axı? Onlar bir-birinə bacı-qardaş sayılmırlarmı? Yaxşı, bunları bilməyənlər sizi evləndirərkən siz necə, heç bu izdivaca qarşı çıxdınızmı?

Ana, ata, axı siz ikiniz də ali təhsillisiniz. Dünyagörüşü, ali təhsili olmayanlar bu izdivac üçün bir günah daşıyırlarsa, siz iki günah daşıyırsınız. Axı siz qan qohumluğunun mənfi nəticələri barədə bilməmiş olmazdınız. Nə üçün onlara qarşı çıxmadınız? Buna gücünüzmü çatmadı? Nənə-babanıza, valideynlərinizə qarşı çıxa bilmədinizmi? Düzdür, böyüklərə hörmət hər kəsin borcudur. Amma o böyüklər ki, sənə düzgün yol göstərmirlər, onların sözündən çıxmağınızı Allah sizə günah saymazdı.

İndi heç mənim halımdan utanırsınızmı? Məni evdə qoyub qohumlarınızın, qonşularınızın toy ziyafətinə, ad gününə gedərkən nələr çəkdiyimi hiss edirsinizmi? Məni özünüzə yaraşdırmırsınız, hə? Axı məni dünyaya siz gətirmisiniz. Özü də bilərək ki, mən belə doğulacağam: qüsurlu. Sizi evlənməyə təhrik edən babam-nənəm haradadırlar? Onlar sizin üzünüzə baxa bilirlərmi? Mənim bu halımı hər dəfə görərkən hansı hissləri keçirirlər? Nə üçün məni gəzintiyə çıxaranda elə utanırlar. Nə üçün mənim gələcəyimdən söz düşəndə gizli-gizli ağlayırlar? Bunu əvvəldən düşünmək olmazdımı?

Nə üçün mən düzgün olmayan addımlarımla yaşıdlarım arasında xəcalət çəkməliydim? Nə üçün mənim qüsurlu gözlərim kiminsə mənə acımasına səbəb olmalıydı? Qanımdakı problemlərin ömrümə hansısa bir andaca son qoyacağını bilirsinizmi? Ölməsəm, qalsam, kimə lazımam? Məgər mən başqaları kimi məktəbdə müəllim dediklərini normal şəkildə anlayırammı? Məgər mənim əlaçı olmaq üçün yetərincə sağlam orqanizmim varmı?

Axı mən həkim olmaq istərdim. Sizin kimilərlə mübarizə aparıb gələcək nəslin sağlamlığının qeydinə qalmaq üçün. Mən müəllim olmaq istərdim. Gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmaq üçün. Mən də sevib, sevilmək istərdim, ailə qurub, sağlam övladlar sahibi olmaq üçün. Amma bunların hamısı bir arada mümkünmü? Mən həkim, müəllim ola bilsəm belə, sağlam ola bilməyəcəyəm. Ailə qura bilsəm belə, ya övladım olmayacaq, ya da özüm kimi qüsurlu olacaq.

Siz heç övladınızın müvəffəqiyyəti barədə düşünmüsünüzmü? Onu məktəbə-birinci sinfə göndərərkən fərəh hissi keçirmisinizmi? Arxadan baxıb, “boyuna qurban”, demisinizmi? Yoxsa illərlə başınız xəstə övladınızın müalicəsinə qarışıb? Onun ali məktəbə daxil olmasını necə, təsəvvürlərinizdə canlandırıb, bu sevinci xəyallarda da olsa, yaşamısınızmı? Övlad toyu-qız köçürmə, oğul evləndirmə, gəlin gətirmə barədə neçə, xəyal qurmusunuzmu? Bəs qucağınıza nəvə almaq barədə necə, heç fikirləşmisinizmi? Siz də mənim kimi başqalarından, görün, neçə seçilirsiniz. Bunların hər biri haqqında fikirləşdiyinizi bilirəm. Bütün bunlar sizin ən ümdə arzularınızdır. Lakin artıq gecdir. Baxın, siz səhv addımınızla nə qədər günahlara səbəbsiniz? Həm özünüzə, həm də mənə günah etmisiniz.

Kimdir günahkar? Qan qohumlarının izdivacına razılıq verib, gəncləri buna təhrik edib, sonradan əzab, xəcalət çəkənlər. Kimdir günahkar? Gəlin onu ittiham edək. İttiham edək ki, başqalarına da dərs olsun. Qan qohumluğuna razılıq verənlər mənim kimiləri görüb utansınlar. Mənim kimilərin arzularını ürəklərində qoyduqları üçün xəcalət çəksinlər. Övladlarının qüsurlu övladlarını görəndə günahkar olduqlarını dərk etsinlər. Gözlərini açıb müasir dünyaya yaxşı-yaxşı baxıb, radio-televiziyanın, qəzet və jurnalların qan qohumluğu ilə bağlı “bar-bar bağıran” verilişlərini dinləsinlər, yazılarını oxusunlar. Qan qohumluğuna, yox, desinlər. Bunun gələcək nəsillərin inkişafına, sağlamlığına mənfi təsiri olduğunu dərk etsinlər.

Unutmayın, insanlar! Bu gün övldınız mənim kimi xəstə doğulmayıbsa, sabah onu övladı doğulacaq.

***Mətanət Məmmədova***

# ƏSRLƏRİN YADDAŞINA KÖÇƏN ŞƏHİDLƏRİMİZ





*Azərbaycan xalqı şəhadətə qovuşan oğullarını heç vaxt unutmur və onlar qəlblərdə bir taxt, yuva qurublar. Qəhrəmanlıq şücaətləri ilə bir evin yox, bir obanın övladına çevrildilər. Qısa ömürlə yüzilliklərə adlarını qovuşdurdular. Minlərlə mübariz oğlu Vətən müharibəsində haqq savaşında şəhid oldular. Bu, qəhrəmanlıq tarixidir, 44 günün tarixi. Zirvədən-zirvəyə yüksəldilər, xalqın Zəfər tarixini yazdılar. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi. Artıq Zəfər tariximizə doğru addımlayırıq. Dörd il bundan əvvəl silaha sarılmış oğullar sıldırımlı yolları aşaraq, soyuğa baxmayaraq irəliyə doğru addımlayırdılar. Geri qoyduqları ana, ata, övlad, qarışda isə işğaldan azad olunacaq torpaqlarımız onları gözləyirdi. Minlərlə vətən oğlu torpağımızın hər qarışı uğrunda şəhid oldular. Ən ali bir zirvədə şəhidlik zirvəsində əbədiləşdilər. Heç bir hiss onları məsləklərindən geri döndərmədi.*

### ”SİZDƏN BİZƏ QALAN BU YÜKÜ ÖVLADLARIMIZA MİRAS QOYMAMALIYIQ”

Xalqımızın mərd, igidlərdən biri də noyabr ayının 4-ü Laçının Xanalılar kəndində şəhid olan və şəhid general-mayor Polad Həşimovun yaxın dostu, döyüş yoldaşı olan polkovnik leytenant Tağıyev Ruslan Fuad oğludur. O, 1982-ci ildə iyun ayının 12-də İsmayıllı rayonunun Qubaxəlilli kəndində dünyaya göz açıb. İsmayıllı rayonu 3 saylı orta məktəbdə təhsilini başa vurub. 1999-cu ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. 2004-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda ”N” saylı hərbi hissədə tabor kəşfiyyat tağım komandiri, 2005-2010-cu illərdə Kəngərli rayonunda ”N” saylı hərbi hissədə kəşfiyyat bölük komandiri, 2010-2012-ci illərdə Culfa rayonunda ”N” saylı hərbi hissədə kəşfiyyat bölmə rəisi olub. 2012-2014-cü illərdə Ali Hərbi Akademiyada təhsilini davam etdirir. 2014-2017-ci illər arasında Şəmkir rayonu ”N” saylı hərbi hissədə kəşfiyyat şöbə rəisinin baş köməkçisi rəisi, 2017-2020-ci illər arasında Müdafiə Nazirliyində müxtəlif vəzifələrdə çalışıb. Vətənə xidməti ərzində bir sıra sertifikatlar, medallar və təşəkkürnamələr ilə təltif olunub. 2019-cu ilin fevral və iyun aylarında ikili razılaşma əsasında Çinin Pekin şəhərində ölkəmizi təmsil edib və hərbi biliklərini artırmaq məqsədilə təhsilini davam etdirib. 2020-ci ilin oktyabrında isə Türkiyəyə doktorantura təhsili almağa yollanacaqdı. Lakin Vətən müharibəsi başlayan zaman övladları olan Fuad, Polad və 3 yaşlı Nurayı həyat yoldaşına əmanət edərək, ezamiyyətə gedirəm, deyir, ailəsi bir neçə gün sonra onun döyüşdə olduğunu öyrənir. Atası ilə söhbəti zamanı bu sözləri deyir: ”Sizdən bizə qalan bu yükü övladlarımıza miras qoymamalıyıq”.

Həyat yoldaşı dəfələrlə diqqətli, ehtiyatlı olmağı ona tapşırsa da, polkovnik-leytenant şəhidlərin heç birindən artıq olmadığını bildirir. Qardaşı Həsən Tağızadənin sözlərinə görə, ”Verilən məlumatlara əsasən, onun artilleriya atəşinə tutulan əraziyə tək başına ”pikap” tipli nəqliyyat vasitəsilə gedərək şəhidləri, yaralıları, üzvləri qopmuş yaralıları çıxardığını bilirik”.

Vətən uğrunda canını fəda edən igid zabitimiz Vətən müharibəsində bir çox strateji yüksəkliklərin alınmasında fəal şəkildə iştirak edir. Füzuli, Zəngilan, Cəbrayıl rayonlarında gedən şiddətli döyüşlərdə iştirak edir, son döyüşü isə Laçının Xanalılar kəndində olur. Döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olur. 38 illik ömrünün 21 ilini vətənə xidmət edir və 21 illik vətənə qüsursuz xidməti ilə bağlı Vətən müharibəsindən əvvəl medal ilə təltif olunur.

### VƏTƏN ONLARLA QÜRUR DUYUR

Bəli, işğal altında olan torpaqlarımızın azad olunmasında qəhrəmancasına vuruşur. Xocalı faciəsinin, Ağdaban, Başlıbel qətliamlarını yaşamış bir xalqın intiqam, qisas harayı onu rahat buraxmırdı. Mübarizlər yetirən Azərbaycan müqəddəs torpaqlarımızın işğaldan azad olunması yolunda Ali Baş Komandanın əmrini gözləyirdilər. Hamı Prezidentin ətrafında bir yumruq olaraq birləşdilər. Sonu Zəfər olan işıqlı bir yol bizi gözləyirdi. Minlərlə Vətən oğlu şəhid oldu, qazi mərtəbəsinə yüksəldi. Ərənlik, şücaət göstərdilər. Şuşa cəngavərləri, Şuşa qartalları, hər qarışın işğaldan azad olunmasında qanı tökülən oğullar. Qisas aldınız, sizin də qisasınız alındı. Ruhunuz şad olsun, igid Vətən oğlulları, Azərbaycan sizi heç vaxt unutmayacaq. Ruslan Tağıyev! Bu isim, soyad bizlərə qəhrəmanlıq məktəbində bir salnamə yazmış Vətən oğlu haqqında hər şeyi demiş olur.

30 ilə yaxın həsrətlə gözlədiyimiz torpaqlarımız bu gün dirçəlir. O yerlərə yeni nəfəs gəlib. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğullarının şücaəti, mücadiləsi milyonlarla insanlara QƏLƏBƏ sevincini yaşatdı. Bu elə bir gündür ki, zaman-zaman Azərbaycan xalqının torpaq uğrunda savaşını, böyüklüyünü, bütövlüyünü, lazım gələndə bir yumruq olaraq birləşməsini yetişən nəsillərə illər, qərinələr, əsrlər sonra belə təqdim edəcək. Bu qələbədə minlərlə azərbaycanlı gəncin payı var. Azərbaycanın qələbə sorağı dünyaya yayıldı. Zəfər günümüzü yaşadıq. Xalqımız üçün bundan sevincli gün nə ola bilərdi ki? Artıq bu gün tarixiləşdi. Müstəqil Azərbaycan dövlətinin vətənpərvər gəncləri Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması yolunda vuruşdular. Hər qarış torpağın müdafiəsində dayandılar və Şəhid də oldular, qazi də. Azərbaycan tarixi ədaləti bərpa etdi.

Düşmənin üstünə gedən və ona həddini bildirən ruslanların ərənliyi ilə bu gün torpaqlarımız əzəli sakinlərinə qucaq açıb. Bu torpaqlarda yüzlərlə, minlərlə ruslanlar boy atacaq. Qan qoxuyan torpaqlarda ayaq açanlar vətən müqəddəsliyini daha dərindən anlayacaqlar. Biləcəklər ki, bu torpağı əkib-becərmək, qurub-yaratmaq, ona nəfəs verib nəfəs almaq gərəkdir. onu qorumaq gərəkdir. Vətən onlarla qürur duyur. Əsrlərin yaddaşına köçən Ruslanları ilə.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Azərbaycanı hədəf alaraq qəbul edilən qərarlar obyektivlikdən uzaqdır”

***“Avropa Parlamentinin anti-Azərbaycan mövqeyi və növbəti qərəzli bəyanatları artıq intensiv xarakter almağa başlayıb. Ənənəvi yanaşmalarına sadiq qalaraq “insan hüquqları” məsələsi gündəmin əsas mövzusuna çevirməyə davam edirlər.***



Amma hər dəfə yaranan ritorik sual yenə də cavabsız qalır. Avropa və ya ümumiyyətlə birləşmiş Qərb insan hüquqlarına hörməti niyə öz yanaşmalarında və ya siyasi profilində axtarmır? Ümumiyyətlə, insan hüquq və azadlıqlarından danışan Avropa Parlamentinin bəzi üzvləri bu universal dəyərləri müdafiə etdiklərini iddia edərkən Avropanın tam mərkəzində baş verənləri görmürlər”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Aytən Qurbanova deyib.O bildirib ki, hətta qərəzli anti-Azərbaycan bəyanatlarının qəbul edildiyi şəhərdə, Avropanın siyasi paytaxtı hesab olunan Brüsseldə irqçilik əleyhinə keçirilən dinc aksiyalar zamanı tətbiq olunan ifrat polis zorakılığını görmədən hansı insan hüquqlarından danışa bilirlər: “Eləcə də, İspaniyada xüsusilə son illərdə yəhudilərin mütəmadi olaraq neonasistlərin hücumlarına məruz qalması halları polis tərəfindən qeydə alınmış rəsmi faktlardır. XXI əsrin reallıqları şəraitində hələ də müstəmləkəçilik siyasətini davam etdirən Fransanın Yeni Kaledoniyada etdiyi zorakılıq aktları gözardı edilə bilməz. Ümumiyyətlə, əli günahsız insanların qanına bulaşaraq soyqırım cinayətlərini həyata keçirmiş Fransa kimi dövlətlər, eləcə də onların maraqlarının təmin olunmasında alətə çevrilmiş institusional qurumlar Avropanın mərkəzində sözdə insan hüquqlarından danışmaq üçün mənəvi haqqını çoxdan itiriblər. Ona görə də, İnsan Hüquqları Komitəsinin 142-ci iclası zamanı Komitənin üzvü, serbiyalı professor Tijana Şurlanın fransız nümayəndə heyətinə ünvanladığı sual kifayət qədər önəmlidir.

Xanım Şurla öz sualında vurğulayır ki, “Cəzaçəkmə müəssisələrinin həm Fransada, həm də dənizaşırı ərazilərdə həddindən artıq dolu olması və qeyri-insani saxlanma şəraiti ilə bağlı narahatlıqlar hələ də var. 2021-ci ildə saxlanma şəraitinin qeyri-insani olduğu vurğulanmışdı. Buna görə də dövlətin məhbuslarla bağlı məlumatları necə çatdırdığını öyrənmək istərdik”.Bütün bu faktlar bir daha təsbit edir ki, Avropa Parlamentində və ya Avropanın mərkəzindəki bəzi siyasi-institusional dairələrdə Azərbaycanı hədəf alaraq qəbul edilən qərarlar obyektivlikdən uzaq, qərəz və əsassız iddiaların təzahürüdür”.

***Səbinə Hüseynli***

# Qərb niyə gürcü xalqını təhdid edir?

## Gürcüstanda hakimiyyət çevrilişinə cəhdin məqsədi Cənubi Qafqazda Ermənistan kimi daha bir marionetka ölkəyə sahib olmaqdır




***Gürcüstanda keçirilən 26 oktyabr parlament seçkiləri iqtidardakı «Gürcü Arzusu-Demokratik Gürcüstan» Partiyasının qələbəsi ilə başa çatsa da müxalifət seçkinin nəticələrini tanımadığını bildirir və gürcü xalqını etiraz mitinqlərinə səsləyir. Xüsusilə də bu mitinqlərin təşkilatçısı rolunda ölkənin Prezidenti Salome Zurabişvili çıxış edir.***

Bəs niyə məhz Zurabişvili? Ona görə ki, bu xanım Prezident



bir xeyli müddət Fransa vətəndaşı kimi o ölkədə siyasətlə məşğul olub. Lakin ötən illərdə birdən - birə Gürcüstana gəlib buradakı seçkilərdə iştirak edərək Prezident seçilir. Gürcüstanın siyasi analitikləri hesab edirlər ki, bu gün Zurabaşvili ilə Fransanın ideoloji-siyasi birlik bağları mövcuddur və məhz Gürcüstandakı «məxməri inqilab»a hərtərəfli dəstək verən Fransa öz kirli əməllərini bu xanım siyasətçinin əli ilə həyata keçirmək istəyir. Lakin «Gürcü Arzusu-Demokratik Gürcüstan» Partiyasının qələbəsi Fransanın bu niyyətini pozmuş oldu. Əslində Fransanın Gürcüstanda özünün istədiyi hakimiyyəti qurmağa çalışması, Cənubi Qafqazda ona Ermənistan kimi itaət edən ikinci bir ölkə görməkdir.

Bu gün Gürcüstanda keçirilmiş növbəti parlament seçkilərini birmənalı Cənubi Qafqazın gələcək taleyində önəmli təsirə malik geopolitik faktor hesab etmək olar. Belə yanaşmanın kifayət qədər ciddi səbəbləri də mövcuddur. Çünki dünya nəhəngləri Gürcüstandakı seçkiləri də geopolitik mübarizənin predmetinə çevirməyə nail olmuşdular. Xüsusilə Cənubi Qafqazda maraqları olan bəzi dövlətlər Gürcüstanda özlərinə daha loyal hakimiyyətin formalaşdırılmasına cəhd göstərirdilər.

Bu gün digər maraqlı məqam Gürcüstan hakimiyyətinin müxalifətin etiraz aksiyalarına necə reaksiya verməsidir. Son illərin siyasi mənzərəsi onu deməyə əsas verir ki, rəsmi Tbilisini aksiyalarla öz yolundan döndərmək mümkün deyildir. Çünki bu il «Xarici təsirin şəffaflığı haqqında» qanunun qəbul edilməsinə qarşı da müxalifətin davamlı etiraz aksiyaları keçirilmişdi. Ancaq sonda hakimiyyət irəli sürdüyü qanun layihəsinin qəbuluna nail oldu. İndi idə iqtidar partiyası öz haqlı mövqeyindən dönmək niyyətində deyildir. Bir sözlə, güman edilir ki, müxalifətin mübaizəsi alınmazsa Qərbin yeni parlament və hökumətlə əməkdaşlıq etməkdən başqa yolu olmayacaq.

«Gürcü Arzusu»nun qələbəsi Fransa Prezidenti Emmanuel Makronun planlarını pozdu. Çünki Fransaya bağlılığı şübhə doğurmayan Prezident Salome Zurabişvilinin liderliyi altında gürcü müxalifətinin hakimiyyətə gətirilməsi onun əsas hədəfi idi. Ermənistanı özünün siyasi müstəmləkəsinə çevirmiş Fransanın Gürcüstana da nəzarəti ələ keçirtmək istəyi Cənubi Qafqazda mövqelərini möhkəmləndirməklə Azərbaycanı təkləməkdir.

Ən dəhşətlisi isə Avropa ölkələrinin bu gün də, postseçki dövründə Gürcüstan hakimiyyətini təhdid etmələridir. Məlumdur ki, Qərb seçkilərdə pozuntu və qüsur aşkar edə bilməyib. Xüsusilə seçkiləri müşahidə edən ATƏT nümayəndələri də seçki prosesində seçkinin nəticəsini dəyişə biləcək ciddi pozuntulara rast gəlmədiklərini bildiriblər. Hətta bununla belə, Gürcüstan hakimiyyəti göstəriş veribdir ki, seçkinin şəffaflığına zərər vuran faktlar varsa araşdırılsın və günahkarlar cəzalandırılsın.

Bütün bunlara rəğmən həm ABŞ, həm də Avropa ölkələri bütün vasitələrdən istifadə etməklə bu ölkədə zorla hakimiyyət dəyişikliyini həyata keçirmək istəyir. Məsələn, ABŞ-ın Dövlət katibi Antoni Blinken və Avropa İttifaqının Xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel, Böyük Britaniya XİN-i seçkilərdəki pozuntuları araşdırmağa çağırıblar. İfadəyə diqqət edin, qüsurları yox pozuntuları Bu, əslində ona işarədir ki, seçkilərin nəticələrini tanımayacağıq. Hətta ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller daha dərinə gedərək Gürcüstanı hədələyib: «Gürcüstan öz siyasi kursunu dəyişməsə, ölkəni ciddi nəticələr gözləyir.» Daha bir avantürist avropalı Fransanın Avropa məsələləri üzrə naziri Benjamin Haddad bildirib ki, guya Gürcüstandakı seçki prosesində seçicilərə qarşı təzyiq, hədə-qorxu və təhdidlər olub. Bundan başqa, Kanada seçkilərin nəticələrinə görə Gürcüstan rəhbərliyi ilə münasibətlərinə yenidən baxmaq niyyətində olduğunu bildirib. Həmçinin Qərbin Estoniya, Litva, Latviya kimi «sözçü»ləri də əllərində seçkilərin saxtalaşdırılmasına dair heç bir fakt olmadığı halda Gürcüstana qarşı əsl siyasi savaş açıblar.



Məhz burada deyirlər ki, mərdi qova- qova namərd etmək Eyni zamanda, axı onlara kim icazə verib ki, suveren bir dövlətin daxili işlərinə qarışsınlar. Təbii ki, Qərbin məqsədi Cənubi Qafqazda Ermənistanın ardınca Gürcüstanda da marionet hökumət formalaşdırmaq, ölkəni ekspansiya platformasına, Qərb-Rusiya qarşıdurması məkanına çevirməkdir. Amma bu plan baş tutmadı və tutmayacaq da

Bundan əvvəl Moldovada seçkilərin nəticələri faktiki olaraq saxtalaşdırıldı ki, bu antidemokratikliyin arxasında ABŞ və Fransa dayanırdı. Gürcüstanda isə alınmadı. Gürcü xalqı və orada yaşayan azərbaycanlılar da daxil olmaqla buna imkan vermədilər. Biz ötən yazılarımızda da bildirmişdik ki, gürcü xalqının Qərbə olan inamı itib. Ona görə ki, hələ 2008-ci ilin avqustunda Rusiya- Gürcüstan qarşıdurması Rusiyanın bu ölkəyə qoşun yeritməsi ilə nəticələndi. Hətta rus qoşunları Tbilisinin 25 kilometrliyinə qədər gəlmişdi. Həmin dövrdə Saakaşvili Qərbin adamı kimi tanınırdı və onun əsas məqsədi Abxaziya və Cənubi Osetiyada separatçı rejimi ləğv edərək ölkənin ərazi bütövlüyünü bərpa etmək idi. Lakin bu yolda yanlış və tələsik addımlar atmaqla özünü və ölkəsini fəlakətə sürüklədi. Hətta bu məsələdə Qərb onu hərbi -siyasi cəhətdən dəstəkləyəcəyini vəd etsə də sonralar sözünü tutmadı. Nəticədə hər iki separatçı «respublika» Gürcüstanın idarəçiliyindən çıxdı və sonradan Rusiya onların müstəqilliyini tanıdı.

Həmin dövrdən başlayaraq gürcü xalqı Qərbə olan inamını itirdi və keçmiş Prezident Saakaşvilini avantüraya yol verməkdə qınadı. Gürcülər iddia edirlər ki, əgər Qərb həqiqətən Gürcüstanın maraqlarını qorumuş olsaydı Abxaziya və Cənubi Osetiya məsələsi bu qədər uzanmazdı. Qərb siyasətini əsasən vədlər üzərində qurur. Gürcü xalqı bunu yaxşı bilir və Qərbə o qədər də inanmır. Qərb isə Gürcüstanda hakimiyyətin yenilənməsini və onların köləsi olacaq bir hakimiyyətin olmasını istəyir. Bu isə onu göstərir ki, beynəlxalq hüquqda dövlətlərin daxili işlərinə müdaxiləni qadağan edən prinsiplərin olmasına baxmayaraq, Qərb uzun müddətdir «demokratiya» və «insan haqları» adı altında bəzi ölkələrin daxili işlərinə açıq şəkildə müdaxilə edir. İşğalın və təcavüzün yeni üsulları kimi tətbiq edilən bu yanaşmalar, adətən, seçki dövrlərində, xüsusən də parlament seçkiləri zamanı daha da güclənir. Yəni, ABŞ və digər qlobal aktorlar həssas siyasi vəziyyətlərdən istifadə edərək öz maraqlarını həyata keçirməyə çalışırlar. Məlumdur ki, illər öncə Gürcüstanda «məxməri» inqilabdan sonra Qərb ölkədə mövqeyini möhkəmləndirib və qeyri-hökumət təşkilatları vasitəsilə həm cəmiyyətə, həm də dövlət idarəetməsinə ciddi təsir imkanları əldə edib. Bu da Qərb dövlətlərinə, xüsusən ABŞ-a Gürcüstanın daxili məsələlərinə müdaxilə etmək və hökumətin qərar qəbuluna təsir göstərmək imkanı verir.

Burada digər bir önəmli məqama da diqqət yetirmək lazımdır ki, Gürcüstandakı mövcud hakimiyyətin xarici siyasət kursu Rusiya, Türkiyə və Azərbaycanı tamamilə qane edirdi. Ona görə də ABŞ başda olmaqla Avropa ölkələri bu tendensiyadan ciddi narahat olurlar. Eyni zamanda, Ermənistan siyasi dairələri də Gürcüstanda iqtidar partiyasının qələbə çalmasından narahatdır. Çünki haylar Gürcüstanın da Qərbə inteqrasiya prosesində Ermənistana qatılmasında maraqlıdırlar. Axı, bu, Fransa kimi ermənipərəst bir dövlətin həm də Güncüstanda möhkəmlənməsi demək idi. Bu plan da reallaşmadı. Bununla da həm Qərbin, həm də onun əlaltısı olan Ermənistanın Cənubi Qafqazda Azərbaycanı təkləmək planları iflasa uğradı.

***E. Zaman***

## “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

Mülki Məcəllənin 107-1.8-ci maddəsini rəhbər tutaraq, “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyətinin (“ABB” ASC) İdarə Heyəti Sizin nəzərinizə çatdırır ki, 13.12.2024-cü il tarixində saat 1500-da Bakı şəhəri, Nizami küçəsi 67 ünvanında Bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı (bundan sonra – Ümumi Yığıncaq) keçiriləcəkdir.

Bununla yanaşı bildiririk ki, “ABB” ASC-nin Nizamnaməsinin 8.10-ci maddəsinə əsasən səsvermənin qiyabi şəkildə həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxil edilir:

- “ABB” ASC-nin nizamnamə kapitalının artırılması və Nizamnaməsinin yeni redaksiyada təsdiq edilməsi;
- “ABB” ASC-nin törəmə innovasiya şirkətinin yaradılması.

Ümumi yığıncağın keçirilməsinə dair bildiriş 07.11.2024-cü il tarixindən, gündəliyə çıxarılan məsələlər üzrə müvafiq materiallar və səvermə bülleteni isə 01.12.2024-cü il tarixindən hər bir səhmdar üçün Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi tərəfindən İnvestor Portalında yaradılmış şəxsi kabinetində yerləşdiriləcəkdir (invp.e-mdm.gov.az).

Gündəlikdə olan məsələlərə dair münasibətinizi şəxsi kabinet vasitəsilə 01.12.2024 cü il tarixdən 13.12.2024 cü il tarixədək elektron qaydada bildirməklə və ya bülleteni çap edərək müvafiq qaydada doldura-raq (imzanız notarial qaydada təsdiq edilməklə) qapalı zərfdə Bakı şəhəri, Nizami küçəsi 67 ünvanına 13.12.2024 cü il tarixədək göndərməklə səsvermədə qiyabi iştirak edə bilərsiniz.

Yuxarıda qeyd olunan qaydada təqdim edilmiş zərflərin açılması, eləcə də elektron qaydada verilmiş səslərin sayılması ümumi yığıncağın keçirildiyi gün həyata keçiriləcəkdir.

***“ABB” ASC-nin İdarə Heyəti***

# “Ət yemək ağır günahdır”



Son vaxtlar dünyada, eləcə də Azərbaycanda vegetarianlıq geniş yayılır. Əslində, bu, təzə bir şey deyil, çox qədimlərdən ət yeməyən xalqlar olub, bu gün də dünyada 1 milyarddan artıq vegetarian var. Vegetarianlığın əbədi mövcud olduğu Hindistanda daha çox (əhalinin 40 faizi) vegetarian olsa da, son dövrlərdə digər ölkələrdə daha çox insan ət yeməkdən imtina edib. Bunu 3 səbəbdən edirlər, dini, sağlamlıq, humanizm baxımından. Bəs vegetarianlığın mahiyyətində nə dayanır? Bu suallara müsahibimiz, bu sahədə bir neçə kitabın müəllifi, tədqiqatçı-ilahiyyatçı Ramil Əliyev cavab verir.

**- Gəlin elə birbaşa mətləbə keçək. Siz hansı səbəbdən ət yemirsiniz?**

- Əvvəla, bunun mahiyyətində dərin ruhi biliklər və ilahi təlimatlar dayanır. Tanrı fədaisi olaraq biz yediyimiz qidanı Tanrıya təklif etməmiş qəbul etmirik. Krişna isə müqəddəs kitab “Bhaqavad-Qita”da Ona ancaq gül, yarpaq, su, meyvə, tərəvəz təklif olunarsa, bunları qəbul edəcəyini bildirir. Orada ət, yumurta, balıq, toyuq barədə deyilmir. Əgər Krişna-Allah Ali Şəxs bunları qəbul etmirsə, biz nə üçün qəbul etməliyik?

Məsələnin digər tərəfinə gəldikdə, deməliyəm ki, ətlə qidalanmaq zərərli vərdişlərdən biridir. Həm də müasir elm sırf bioloji baxımdan insan bədəninin quruluşuna görə, daha çox ot yeyən canlılara bənzədiyini sübut edir. Məsələn, dişlərin, həzm sisteminin quruluşu, bağırsaqların uzunluğu, mədə şirəsinin tərkibi otyeyenlərlə eyni, ətyeyənlərlə əksdir. Bu, bioloq alimlər tərəfindən təsdiq olunmuşdur. Ətin insan qidası olmadığını, ət yeməyin sağlamlığa da zərbə vurduğunu tibb alimləri dəfələrlə sübut ediblər.

Ət məhsullarından imtina etmək ruhi inkişaf üçün yeganə faktor olmasa da, vacib faktordur. Lev Tolstoy deyirdi ki, insan bədəni heyvan qəbiristanlığına bənzəyir. Tədricən ət məhsullarından imtina etmək istənilən nöqteyinəzərdən insan üçün olduqca faydalıdır. Vegetarianlıq həm də zorakılıq işlətməmək üçün çox vacib məsələdir. Ət yemək üçün mütləq zorakılıq işlədilməli, qan tökülməlidir. Yeməyə minlərlə növ qida vasitəsi olduğu halda Tanrının yaratdığı canlını yemək məqsədilə öldürməyə ehtiyac yoxdur.

***Ramil Əliyev: “Yeməyə minlərlə növ qida vasitəsi olduğu halda Tanrının yaratdığı canlını yemək məqsədilə öldürmək yolverilməzdir”***



**- Opponentləriniz deyəcək ki, bitkilər də canlıdır, onları niyə yeyirik?**

- Biz ağacların məhsullarını-meyvələri yeyərkən həmin ağacı məhv etmirik. Onların barını yeyirik. Eləcə də, süd, qatıq, bal kimi məhsullar yeyəndə heç kimi öldürmürük. Bitkilər sırf insan qidası kimi nəzərdə tutulmuşdur.

Bunu bir çox dahilər anlayıb və öz həyatlarında tətbiq ediblər. Qədim zamanlardan indiyədək vegetarian olmuş müdriklər ordusundan bəzilərinin adlarını xatırlasaq, fikrimizi daha aydın ifadə etmiş olarıq. Pifaqor, Sokrat, Platon, Kliment Aleksandrivski, Plutarx, Şah Aşoka, Leanardo Da Vinçi, İsaak Nyuton, Emmanuel Svedanborq, Volter, Bencamin Franklin, Jan Jak Russo, Lev Tolstoy, Bernard Şou, Rabindranat Taqor, Albert Eynşteyn, Mahatma Qandi, Ayətullah Xamneyi... Siyahını kifayət qədər uzatmaq olar. Qədim mənbələrdə peyğəmbərlərin də ət yeməsi haqda məlumata rast gəlinmir.

Bu məsələ ilə bağlı böyük müdriklərin məsləhətləri də nədənsə qulaqardına vurulur. Sizə bir neçəsini xatırladım- “mədənizi heyvanların qəbiristanlığına döndərməyin!” (Tolstoy), “insanın qıdası yalnız bitkilərdir” (Sokrat), “heyvanlara etdiyiniz zülm bağışlansaydı, hamınız bağışlanardınız” (Məhəmməd peyğəmbər).

**- Allah bir sıra müqəddəs kitablarda heyvanları insana qida kimi istifadə etməyə icazə verib, amma siz qadağa qoyursunuz**

- Siz hansı müqəddəs kitabda oxumusunuz ki, Tanrı bizə hava udmağa, su içməyə meyvə-tərəvəz yeməyə, çörək yeməyə, süd içməyə icazə versin?! Mən əminəm ki, heç bir kitabda belə bir icazə haqqında heç nə yoxdur. Nə üçün? Ona görə ki, bunlar hamısı təbiidir, təbii olanın icazəyə ehtiyacı yoxdur.

O şey ki, icazə ilədir, deməli, təbii deyil, bu, çox sadə məntiqdir. Hər cür çərçivə onu getdikcə daraltmaq lazımdır deməkdir. Əks halda, sabit vəziyyətdə qalmayan o çərçivə genişlənəcəkdir. Tanrı icazə verməklə çərçivə çəkir və düşünən kəslər üçün dərin mənalar axtarışı elan edir. Əvvəl-əvvəl biz hər şeyi qayda-qanunla qəbul edirik. Lakin vaxt keçdikcə heç bir qayda-qanunsuz, daha sonra zorakılıq, daha sonra isə cinayətkarlıqla haçansa qəbul etdiyimiz həmin qanunları nəfsimiz naminə pozuruq. Beləliklə, daralmaq bilməyən çərçivə sürətlə genişlənir. Soruşduqda isə, “Tanrı icazə verir”, deyirik.

**- Xristianlar hesab edirlər ki, İncildə İsa Məsihin verdiyi 10 nəsihətin biri olan “öldürmə!” prinsipi ancaq insana aiddir, heyvanlara yox. Amma siz heyvan öldürməyi də yasaq sayırsınız...**

- Baktivedanta Svami Prabhupada deyirdi: “Onda belə çıxır ki, İsa peyğəmbər elə deyə bilməyib ki, bunun ancaq insana aid olduğu başa düşülsün?!” “Öldürmə!” istənilən formada öldürməməyə aiddir. Biz istədiyimiz izahı verə bilərik, amma bu, özümüzə haqq qazandırmaqdan başqa bir şey deyil. İzahı o vaxt verirlər ki, nəsə aydın deyil. Lakin burda hər şey tam aydındır ki, İsa Məsih aydın və konkret olaraq deyir- “öldürmə!”. İstər heyvan, istər insan, istərsə də həşərat olsun- bu söz birmənalı şəkildə öldürməməyə aiddir. Bunun başqa cür izaha ehtiyacı yoxdur.

**- Tanrı niyə heyvan əti yeməyə icazə vermir?**

- İcazə verir, amma yırtıcı heyvanlara. Sivil insan hətta qidalanma üçün belə heyvanları öldürməməlidir. Tanrı çox mərhəmətli və xeyirxahdır. Əgər biz heyvan əti yemək istəyiriksə, O, bunun üçün bütün imkanları yaradır.

Amma gələn həyatımızda bizə pələng bədəni verir ki, heç bir məhdudiyyət olmadan ət yeyək. “Bıçaq, balta, sallaqxana nəyə gərəkdir? Mən sizə pəncə və köpək dişləri verərəm və siz istədiyiniz qədər parçalayıb yeyərsiniz”. Karma qanunu işləyir, nə əkirsən, onu da bişirsən.

Ət yemək üçün əlverişli şərait və imkan əldə etmək naminə heyvan öldürənlər gələn həyatlarında pələng, canavar, it, pişik kimi bədənlər alırlar. Bu olduqca ciddi məsələdir. Tanrıya itaət göstərmək bizim borcumuzdur. Bu borcu unutduqda isə çox ağır cəzalandırılırıq. Fiziki qanuna əsasən, təsir əks təsirə bərabərdir. İtaətsiz insanın özünə haqq qazandıraraq etdiyi hərəkət də mütləq əks reaksiya verəcəkdir. Heç nə olmayan təqdirdə heyvan ətini ölməmək üçün yemək qəbahət sayılmır. Amma nəfsi üçün, dilinə həzz vermək üçün harda gəldi, necə gəldi, nə qədər gəldi heyvanları öldürmək ən dəhşətli günahdır.

**- Bəziləri hesab edir ki, heyvanlar da insanlar kimi eyni bir bioloji tipə aid olsalar da, onların ruhu yoxdur. Can ancaq insanlarda mövcuddur...**

- Əgər bu belədirsə, bəs onda nə üçün biz bitkiyə də, həşərata da, quşa da, su altında yaşayanlara da, insana da “can”lı deyirik. “Can”lı o deməkdir ki, o, daxilində “can” olan maddi bədən formasıdır. Can həm də ruh deməkdir. Bütün canlılarla biz eyniyik, sadəcə paltarlarımız və ya “mindiyimiz maşınlar” (bədən- red.) müxtəlifdir.

Bu ona bənzəyir ki, təsəvvür edin atanın iki oğlu var, biri çox ağıllı alimdir, o birisi sadə fəhlə. Ata üçün bunların hər ikisi oğuldur. O, onların arasında fərq görmür və düşünmür ki, alim oğlum fəhlə oğlumdan mənə daha vacibdir, qiymətlidir.

Əgər alim oğul atasına desə ki, “əziz ata, sənin fəhlə oğlun heç nəyə yaramır, küt və biliksizdir, icazə ver onu kəsim yeyim”, sizcə ata icazə verəcəkmi?! Tanrı üçün bütün yaratdıqları əzizdir. Biz yatırıq, onlar da yatır; biz yeyirik, onlar da yeyir; biz nəsil törədirik, onlar da; biz müdafiə olunuruq, onlar da. Bəs fərq nədədir?! Heç bir məntiqə sığışmır canın ancaq insanda olduğunu, heyvanlarınsa bundan məhrum olduğunu düşünmək.

**- Metafizikaya əsasən, ancaq insan həyatı müqəddəsdir. Axı insan heyvandan qat-qat düşüncəli, ağıllı, ali səviyyəlidir...**

- O hansı yüksək səviyyədir elə? Özünün həzzini təmin etmək üçün başqa canlını öldürüb yemək?! İnək çöldə bitmiş otlarla qidalanır, insan isə bıçaqla, baltayla, sallaqxanalarda müasir texnikanın gücü ilə kəsib doğradığı heyvanların əti ilə! Bizim bıçaq, balta və aparatların köməyilə dəhşətli şəkildə məhv etdiyimiz heyvanların ətini yeməyimiz, heyvanların isə bütün bunlarsız çöldə ot yeməyi hələ o demək deyildir ki, biz onlardan nə iləsə artığıq və bizim bədənimizdə can var, onların bədənində yox. Bu heç bir məntiqə sığmır.

Diqqətlə baxsaq görərik ki, forma başqa olsa da, əsas məsələlərdə heyvanlarla insanlarda həddən artıq bioloji oxşarlıqların olması, onların eyni bir cana sahib olmalarından xəbər verir. Buna görə də bu çox kobud səhvdir-desək ki, “ancaq insanda ruhi can var, heyvanlarda isə yox”.

Veda müdrikliyinə əsasən əgər insan öz düşüncəsini sadəcə olaraq, 4 heyvani instinkti- yemək, yatmaq, cinsi əlaqə və müdafiə olunmaq- daha da komfortlu şəkildə həyata keçirməkdə istifadə edirsə, bu onu hevanlardan o qədər də fərqləndirmir.

**- Qurban islamda əsas prinsiplərdəndir. Sizin sözlərinizdən belə çıxır ki, qurban kəsilməməlidir**

- Qurban ildə 1 dəfə olur və onun çox ciddi şərtləri var. Hər cür qurbanın maddi dünya bağlılıqlarından yaxa qurtarmaq üçün nəzərdə tutulduğunu başa düşmək lazımdır. Öz mülkündən ruhən təmizlənmək naminə qurban vermək, dünya malını fasiləsiz toplayıb ondan hissi həzzi üçün istifadə etməkdən üstündür.

Bundan üstünü öz fiziki bədəninin rahatlığından ruhi dirçəliş üçün imtina etmək, bundan da üstünü hissləri hiss obyektlərindən yayındırmaqla onları ruhi dirçəliş üçün qurban verməkdir. Hisslərdən yüksəkdə isə ağıl durur.

Ağlı Tanrının müqəddəs adlarının tərənnümü odunda qurban vermək, kiminsə, ya nəyinsə qanını tökərək mülkündən qurban verməkdən olduqca üstündür. Tanrı Şri Krişna “Baqavad-Qita”da Ona məhəbbətlə gül, yarpaq, meyvə, su təklif olunmasını qəbul edəcəyini buyurur. O, heç bir qoyundan, keçidən, toyuqdan qurbanı qəbul etdiyini bəyan etmir.

Bunlar dərrakənin düşünməsi üçün faydalı nəsihətlərdir və heç bir müqəddəs yazıya zidd deyildir. Hər cür çərçivə onu getdikcə daraltmağa işarədir. Çünki çərçivəni daraltmağa can atmadıqda, o özü genişlənir. Bu zaman içki də içilir, siqaret də çəkilir, donuz əti də yeyilir, sələmçilik də edilir, amma “ad” saxlanılır.

Hər yerdə olduğu kimi dini və yaxud ruhi bilik də daim dərinliyə getmək, yüksəlmək tələb edir. Hisslərimizə nəzarət bizim özümüzə həvalə olunub! Və ruhumuz hisslərimizə yox, ağlımıza, sevgimizə söykənərək yaşamalıdır. Bəzən deyirlər, dünyanı gözəllik xilas edəcək. Xeyr, dünyanı sevgi xilas edəcək- Yaradana və yaradılanlara sevgi.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
SƏS
2 noyabr
2024-cü il

# Duzlaşma hansı orqanlara daha çox ziyandır?



“Çiyin ağrılarına əhalinin orta və yuxarı yaş qrupunda daha sıx rast gəlinir. Uşaqlarda daha çox travmatik səbəblərdən ortaya çıxır və yeni doğulanlarda da rast gəlinir. Çiyin ağrılarının səbəbləri müxtəlifdir: Duzlaşma, sinir sıxılması, travmalardan sonra boyun fəqərəarası disk yırtıqları səbəbilə fibromialjiya, infeksion və metobolik xəstəliklər”. Bu sözləri SİA-ya açıqlamasında həkim fizioterapevt Şəhla Qafarova deyib. O bildirib ki, vətər və bağların zədələnməsi, əzələ spazmı və s. digər səbəblər də çiyin ağrılarına səbəb ola bilər: “Çiyin oynağı qurluşuna görə mürəkkəb oynaq olduğu üçün ağrının səbəbini həkim anamnezlə, ağrının lokalizasiyası, ağrının xarakteri, zamanı və şüa diaqnostik müayinə metodları vasitəsi ilə dəqiqləşdirə bilər. Ağrı uzun müddət davam etdikdə hərəkət məhdudluğu ilə müşayiət olunur və nəticədə müalicənin müsbət proqnozu çətinləşir. Buna görə də vaxtında həkimə müraciət edib, xəstəliyin səbəbini aşkarlayıb, fizioterapevtik müalicə alaraq xəstəliyi aradan qaldırmaq şərtdir.

Həkim fizioterapevt xəstəliyin hansı səbəbdən qaynaqlanmasını nəzərə alaraq müalicə proqramı təyin edir. Fiziki metodlar əzələnin və bağların funksiyasını bərpa etmək, ağrını aradan qaldırmaq, zədələnmiş toxumada qan və limfa dövranını bərpa



*Həkim detalları açıqladı*

etmək, iltihabı vəziyyət varsa aradan qaldırmaq, zədələnmiş toxumaların regenerasiyasını təmin etmək üçün nəzərdə tutulur. Bu səbəbdən elektroforez, ultrasəslə müalicə, alçaq frekanslı cərəyanlar və s. tibb yeniliyi proloterapiya prosedurası tətbiq edilir”.

***Səbinə Hüseynli***

# Bu ay Azərbaycanda ardıcıl 6 qeyri-iş günü olacaq

Bu ay Azərbaycanda ardıcıl 6 qeyri-iş günü olacaq. SİA xatırladır ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2024-cü il 12 və 13 noyabr iş günləri ilə müvafiq olaraq 16 və 23 noyabr istirahət günlərinin yerləri dəyişdirilib.



Qeyd edək ki, 8 noyabr Zəfər günü qeyri-iş günüdür. 9 noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı günü, iş günü hesab edilməyən bayram günüdür. Bu il 9 noyabr şənbə gününə təsadüf etdiyi üçün Əmək Məcəlləsinə uyğun olaraq gələn həftənin bazar ertəsi – 11 noyabr qeyri-iş günü olacaq. Beləliklə, iş və istirahət günlərinin yerinin dəyişdirilməsi ilə əlaqədar 6 gün - 8, 9, 10 (bazar günü), 11, 12 və 13 noyabr qeyri-iş günü olacaq.


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bu gün 25 dərəcə isti olacaq - XƏBƏRDARLIQ



***Azərbaycanda noyabrın 2-də hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək.***

Havanın temperaturu gecə 11-14° isti, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 759 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75 %, gündüz 45-50 % olacaq. Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Mülayim qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 6-11° isti, gündüz 20-25° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 12-17° isti olacaq.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700